*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

9 fevral 2018-ci il | № 9-12 (9195) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA


### AVROPA KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GƏMİÇİLİYİN RƏHBƏRLİYİ ARASINDA GÖRÜŞ KEÇİRİLİB



*Azərbaycanda səfərdə olan Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyəti ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev arasında görüş keçirilib.*

Səh. 2

### GƏMİÇİLİYİN RƏHBƏRLİYİ QARŞIDA DURAN ŞƏRƏFLİ VƏZİFƏLƏRİN HƏLLİNDƏ YÜKSƏK VƏTƏNDAŞLIQ HİSSLƏRİNƏ MALİK GƏNCLƏRİN TƏŞƏBBÜSKARLIĞINA ARXALANIR

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də 2 fevral – Gənclər Günü münasibətilə tədbir keçirilib.*




Tədbirdə AXDG-nin müxtəlif strukturlarında çalışan gənclər, Azərbaycan Dövlət Dəniz Akademiyasının və Dənizçilik Kollecinin fəal tələbələri, tərəfdaş şirkətlərin nümayəndələri iştirak ediblər.

Səh. 3

### GƏNC DƏNİZÇİNİN "GƏMİ SÜKAN QURĞULARININ DİAQNOSTİKASI" KİTABI XARİCDƏ ÇAP EDİLİB




*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin ikinci mexaniki Səid Orucovun "Gəmi sükan qurğularının diaqnostikası" kitabı Almaniyanın Lambert nəşriyyatında çap edilib.*

Səh. 4

### DƏNİZ MÜHİTİNİN MÜHAFİZƏSİNƏ TARİXİ BAXIŞ



*İnsan cəmiyyəti əsrlər boyu su mühitindən (çaylar, göllər, dəniz və okeanlar) maye və bərk çirkab məişət-təsərrüfat tullantılarının atılma yeri kimi istifadə edib.*

Səh. 5

### "BALAKƏN" GƏMİ-BƏRƏSİ TƏMİRDƏN SONRA İSTİSMARA QAYTARILIB




*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nəqliyyat donanmasına məxsus "Balakən" gəmi-bərəsinin əsaslı təmiri yekunlaşıb.*

Səh. 6

### AZƏRBAYCAN QRAN PRİSİNİN TURNİR CƏDVƏLİ AÇIQLANIB

*"Formula One Group" (FOM) 2018-ci il mövsümündə Formula 1 yarışlarının turnir cədvəlini təsdiq edib.*



"F1News.ru" xəbər verir ki, ötən illərin cədvəli ilə müqayisədə iki əhəmiyyətli dəyişiklik edilib.

Səh. 8




Bu il nəqliyyatla, dəmir yolu nəqliyyatı ilə bağlı bir neçə önəmli layihə icra ediləcək. Qeyd etdiyim kimi, Bakı-Tbilisi-Qars dəmir yolu işə düşüb və artıq fəaliyyətə başlayır. Maraq da çox böyükdür, həm Davos Dünya İqtisadi Forumu çərçivəsində, həm digər forumlarda bu məsələ ciddi şəkildə müzakirə edilir. Demək olar ki, bu, dünyanın gündəliyində duran infrastruktur-nəqliyyat layihələri arasında xüsusi yer tutan layihədir. Şadam ki, təhlilçilər, ekspertlər bu layihənin icrasında Azərbaycan dövlətinin rolunu xüsusi qeyd edirlər və yüksək qiymətləndirirlər. İndi biz çalışmalıyıq ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti üçün lazımi tədbirlər görülsün və əlbəttə ki, görüləcəkdir. Yeni vaqonların, sisternlərin, gəmilərin istehsalı, konteynerlərin alınması istiqamətində müvafiq göstərişlər verilmişdir. Artıq Asiyadan Qərb istiqamətinə yüklərin sayı gündən-günə artmaqdadır. Beləliklə, biz Şərq-Qərb nəqliyyat dəhlizinin reallaşmasına nail ola bilmişik…

Qeyd etdiyim kimi, Azərbaycan öz ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işləri görüb. Ancaq növbəti illərdə biz bu xətti də ölkə ərazisində tədricən yenidən qurmalıyıq. Çünki bu istiqamət üzrə də böyük yüklər gözlənilir. Mövcud dəmir yolu infrastrukturu bu yükləri ötürə bilməyəcək. Ona görə builki investisiya proqramında Bakı-Yalama və Bakı-Astara dəmir yollarının modernləşdirilməsi və yenidən qurulması, təmiri, çəkilişi nəzərdə tutulub, vəsait də ayrılıb və işlər dərhal başlamalıdır. Hesab edirəm ki, bu il Bakı-Yalama istiqamətində tikinti işləri aparılacaqdır. Bakı-Astara istiqamətində isə bu il daha çox layihələndirmə işləri aparılmalıdır. Çünki yolun bir hissəsi sahil boyunca gedir. Bu, həm vətəndaşlara narahatlıq gətirir, həm də cənub zonasının turizm imkanlarını məhdudlaşdırır, eyni zamanda, istədiyimiz həcmdə yüklərin daşınması üçün şərait yaratmır. Ona görə biz bu iki önəmli layihəni investisiya proqramımıza daxil etmişik. Bu il və gələn il bu işlər sürətlə aparılmalıdır…

Ələt Dəniz Ticarət Limanının tikintisi bu il başa çatmalıdır. Bu yaxınlarda mən orada olmuşam, işlərlə maraqlanmışam. Yəni, işlərin tamamlanmasına az vaxt qalır. Beləliklə, 15 milyon ton yükü aşıra biləcək Xəzər dənizinin ən böyük ticarət limanı fəaliyyətə başlayacaq. Yüz min konteynerin daşınması nəzərdə tutulur. Baxarıq, əgər buna daha böyük tələbat olarsa, hesab edirəm ki, biz Ələt limanını qısa müddət ərzində genişləndirə bilərik. Bunun üçün bütün imkanlar var, texniki imkanlarımız da kifayət qədər böyükdür. Bu da tarixi layihədir. Çünki Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. Adətən belə ölkələr nəqliyyat mərkəzi rolunu oynaya bilmir. Ancaq buna baxmayaraq, açıq dənizlərə, okeanlara çıxışımız olmaya-olmaya biz nəinki regionun, Avrasiyanın nəqliyyat mərkəzlərinin birinə çevrilirik və Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Bu dəhlizlər onlarla ölkəni bir-birinə bağlayır, onlarla ölkə üçün şərait yaradır. Bu ölkələr arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihənin fəal iştirakçısı və üzvüdür. Bax, qapalı şəraitdə, açıq dənizə çıxışı olmayan ölkədə belə layihələri icra etmək tarixi xidmətimizdir…

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*(Yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransındakı nitqindən) keçirilib.*

### AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda həmkarlar hərəkatının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əfəndiyev Emin Ənvər-Tovfiq oğlu
Hacıyev Telman Həbib oğlu
Novruzov Sucaxan Müseyib oğlu
Salmanov Məhəmmədəli Məhəmməd oğlu.

**"Tərəqqi" medalı ilə**

Abbasov Xəyyam Böyükağa oğlu
Abbasov Şirvan Əli oğlu
Abdullayev İrşad İlyas oğlu
Abdullayev İsfəndiyar İsmayıl oğlu
Abdullayev Səyyar Həbib oğlu
Allahverdiyev Əjdər Qəhrəman oğlu
Allahverdiyev Şahin Allahverdi oğlu
Atakişiyev Abdulla Zabit oğlu
Babaxanova Xalidə Qaçay qızı
Babanlı Yusif Məmməd oğlu
Babayev Qüdrət Əhməd oğlu
Babayeva Mehriban Hadı qızı
Bağırov Nadir Məhəmməd oğlu
Balayeva Fəridə Kamil qızı
Behbudov Nazim Möhü oğlu
Bəhmənova Elmira Osman qızı
Bilalov Adışah Feyzulla oğlu
Cahangirov Akif Əli oğlu
Cəfərov Vüsət Valeh oğlu
Dadaşova Sevinc Ramiz qızı
Əbilov Ağaşirin Abil oğlu
Əhmədov Hüseyn Həsən oğlu
Əhmədov Muxtar Qədir oğlu
Əhmədov Rövşən Nəcəf oğlu
Ələkbərov Sabir Qara oğlu
Ələsgərova Yaqut Bəylər qızı
Ələzov İsmayıl Söyünpaşa oğlu
Əliyar-zadə Elxan Rəsul oğlu
Əliyev Qafil Elbəyi oğlu
Əliyev Mirqələm İsgəndər oğlu
Əliyev Şirvan Hüseyn oğlu
Əliyev Vahid İldırım oğlu
Əliyeva Sevda Əsgər qızı
Əliyeva Səyyarə Vəli qızı
Əmiraslanov Ədalət İsgəndər oğlu
Əmirova Şəhla Tofiq qızı
Əsgərov Faiq Fikrət oğlu
Əyubov Allahyar Yusif oğlu
Əzimova Afət İsa qızı
Əzizov Müslət Elxan oğlu
Fərzəliyeva Tahirə Rafil qızı
Gözəlova Kəmalə Adil qızı
Haqverdiyev Mehdi İsmayıl oğlu
Həmzəyeva Tükəzban Məmməd qızı
Həsənov Abbas Bəhman oğlu
Hümbətov Nazim Hacı oğlu
Hüseynov Yalçın Şulan oğlu
Hüseynova Şəhla Ədil qızı
Hüseynova Zenfira Hüseyn qızı
Xəlilova Qəribə Allahverdi qızı
Xudiyev Ramik Məmməd oğlu
Xuduyev Əliverdi Abbasəli oğlu
İbrahimov İbrahim Camal oğlu
İbrahimova Təranə İmran qızı
İsayev Etibar Ələkbər oğlu
İsmayilova Əzizə Mirzəmməd qızı
İsmayılova Nailə Sabir qızı
Kazımov Məzahir Qardaş oğlu
Kələşov İmran Əmiraslan oğlu
Qafarov Rafael İbrahim oğlu
Qasımov Vaqif Qəməndər oğlu
Qədimov Bəxtiyar Hüseyn oğlu
Qədimov Tofiq Baxış oğlu
Quliyev Natiq Əli oğlu
Quliyeva Sevda Əziz-Ağa qızı
Quliyeva Zamirə Hidayətovna
Mahmudov Əli Əbülfət oğlu
Maniyeva Raziyyə Sabir qızı
Məmmədov Məmməd Səfər oğlu
Məmmədov Nəriman Əyyub oğlu
Məmmədov Vaqif Vidadi oğlu
Məmmədova Rübabə Heybət qızı
Mənafova Şöhlə Əziz qızı
Mənsimzadə Binyamin Mənsim oğlu
Mərdanlı Fuad Əliövsət oğlu
Mirzəyeva Nərgiz Mirzəxan qızı
Mirzəyeva Sitarə Tariyel qızı
Muradov Azad Almas oğlu
Muradova Zöhrə Sultan qızı
Musayev Qurban İbrahim oğlu
Mustafayev Əli Nəbi oğlu
Mustafayev Ramiz Şəmsəddin oğlu
Nəbiyeva Zilfira Qurbanovna
Nəcəfov Niyazi İsmayıl oğlu
Nəzirov Rüstəm Məmməd oğlu
Niftəliyev Tural Akif oğlu
Rəcəbov Qadir Dadaş oğlu
Rzayev Oktay Ələkbər oğlu
Rzayev Teymur Yaqub oğlu
Salamova Səyyarə Məmməd Ağa qızı
Salayev Səbahət Həsən oğlu
Salmanov İsrafil Xankişi oğlu
Səlimov Rəhim Abdurəhman oğlu
Şabanlı Adil Çaparxan oğlu
Şıxiyev Ağaverdi Xudaverdi oğlu
Tağıyev Asif Dilən oğlu
Talıbov Aydın Veysəl oğlu
Yaqubov Qoşqar Valeh oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
Bakı şəhəri, 2 fevral 2018-ci il.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Holoyley Azərbaycanda nəqliyyat infrastrukturunun yaradılması, o cümlədən yeni dəniz limanının inşası, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, ölkədə müasir aviasiya şəbəkəsinin tam şəkildə inkişaf etdirilməsi istiqamətində əldə edilən nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Görüşdə Azərbaycanın aparıcı beynəlxalq nəqliyyat dəhlizlərindən biri kimi önəmi vurğulandı, ölkəmizin nəqliyyat qovşağı sahəsində mühüm rolu qeyd olundu, Avropa İttifaqının bu işlərə strateji əhəmiyyət verdiyi bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat sahəsində mütəmadi dialoqun yaradılmasının zəruriliyi vurğulandı və nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

**Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.
2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2018-ci il aprelin 11-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
Bakı şəhəri, 5 fevral 2018-ci il.

**Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsi ilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə Protokolun təsdiq edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsi ilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə 2017-ci il avqustun 8-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində göstərilən Protokolun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
Bakı şəhəri, 5 fevral 2018-ci il.

## AVROPA KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GƏMİÇİLİYİN RƏHBƏRLİYİ ARASINDA GÖRÜŞ KEÇİRİLİB







Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey Azərbaycanın nəqliyyat-logistik imkanlarının genişlənməsini, yükdaşımalarda Gəmiçiliyin fəaliyyətini, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsini, Azərbaycanın nəqliyyat-logistik qovşağına çevrilməsi istiqamətində reallaşdırılan digər layihələri yüksək qiymətləndirib. O, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirib.

***Azərbaycanda səfərdə olan Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyəti ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev arasında görüş keçirilib.***



Görüşdə "AXDG" QSC-nin sədri Rauf Vəliyev ölkəmizdə reallaşdırılan nəqliyyat-logistika layihələri, o cümlədən Gəmiçiliyin fəaliyyəti haqqında qonaqlara ətraflı məlumat verib. O bildirib ki, bu gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzərdə Avropa və Asiya arasında ən qısa körpü rolunu oynayır. Hazırda Gəmiçilik Xəzərdə yeganə bərə operatorudur. Donanmanın yenilənməsinin əsas məqsədlərindən biri olduğunu diqqətə çatdıran "AXDG" QSC-nin sədri ölkə başçısı İlham Əliyevin tapşırığına əsasən böyük istehsal gücünə malik Bakı Gəmiqayırma Zavodunda Gəmiçilik üçün hazırda 2 ədəd unikal Ro-Pax gəmi-bərəsinin və iki tankerin tikildiyini vurğulayıb.

Görüşdə eyni zamanda Gəmiçiliyin tranzit xidmətləri haqqında qonaqlara məlumat verilib və şirkətin fəaliyyətini əks etdirən təqdimat nümayiş etdirilib.

## SƏFİR GƏMİÇİLİYİN AZƏRBAYCANIN NƏQLİYYAT QOVŞAĞINDAKI FƏALİYYƏTİNDƏN MƏMNUN QALIB

***Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Kestutis Yankauskas "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də olub.***



Səfir bu günlərdə Avropa Komissiyasının Nəqliyyat və Mobillik üzrə baş direktorunun ölkəmizə səfərinin baş tutacağı haqqında Gəmiçiliyin rəhbərliyinə məlumat verib. Diplomat təmsil etdiyi təşkilatın Azərbaycanla bütün sahələrdə, o cümlədən nəqliyyat sahəsində də əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edib. Bu gün Azərbaycanın bölgədə mühüm nəqliyyat qovşağına çevrildiyini bildirən qonaq eyni zamanda Gəmiçiliyin bu qovşaqdakı fəaliyyəti ilə maraqlanıb.



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev şirkətin dünəni və bu günü haqqında qonaqlara məlumat verib. O, bildirib ki, Gəmiçilik qarşısında qısa, orta və uzunmüddətli hədəflər qoyub və inamla bu hədəfləri reallaşdırmağa çalışır. Avropalı qonaqların diqqətinə çatdırılıb ki, neft və nəqliyyat donanmaları olan Gəmiçiliyin hazırda Xəzərdənkənar sularda Azərbaycan bayrağı altında 13 gəmisi üzür. Şirkətin şəffaf fəaliyyətinin də əsas prioritet olduğunu deyən sədr beynəlxalq audit şirkəti olan "Ernst & Young"-ın illik maliyyə hesabatlarının internet səhifəsində hər kəs üçün açıq olduğunu bildirib. Rauf Vəliyev Gəmiçiliyin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrunda oynadığı roldan, onun tranzit imkanlarından da danışıb.

Sonda "AXDG" QSC-nin sədr müavini Fərhad Quliyev Gəmiçiliyin fəaliyyətini əks etdirən təqdimatla çıxış edib.

## NÖVBƏDƏNKƏNAR SEÇKİLƏRİN KEÇİRİLMƏSİ HAQQINDA SƏRƏNCAM KONSTİTUSİYANIN VƏ ÖLKƏ QANUNVERİCİLİYİNİN TƏLƏBLƏRİNƏ TAM UYĞUNDUR

***Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamını AZƏRTAC-a şərh edib.***



Əli Həsənov bildirib ki, bu günədək Azərbaycanda bütün seçkilər Konstitusiya normalarına, Seçki Məcəlləsinə və digər aidiyyəti qanunvericilik aktlarına uyğun olaraq demokratik, şəffaf və ədalətli şəkildə keçirilib. İstər prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri xalqın iradəsini əks etdirib, həmçinin yerli və beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib.

Bilirsiniz ki, Azərbaycanda hər 5 ilin 3 ili seçkilərlə bağlı olduğundan Konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edildi və dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə uzadıldı. Prezidentin səlahiyyət müddəti 7 il müddətinə uzadıldığına görə, Azərbaycan Respublikası Prezidentinə seçicilərə etimad votumu üçün müraciət imkanı – növbədənkənar prezident seçkilərini elan etmək hüququ verilib. Buna görə də "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncamda nəzərdə tutulmuş məsələlər Konstitusiyanın və ölkə qanunvericiliyinin tələblərinə tam uyğundur.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq 2018-ci il prezident seçkilərinin payızda - oktyabr ayında keçirilməsi nəzərdə tutulmuşdu. Ancaq bu il may ayından başlayaraq ölkəmizdə çoxlu sayda mühüm yerli və beynəlxalq səviyyəli tədbirlər keçiriləcəkdir. Onların sırasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi çərçivəsində silsilə tədbirləri, Beynəlxalq Humanitar Forumu və digərlərini qeyd etmək olar. Həmin tədbirlərin əksəriyyəti ilin sonuna təsadüf edir və seçkilərlə üst-üstə düşür.

Digər tərəfdən, Azərbaycanda mövcud olan praktikaya əsasən, bütün seçkilər payız aylarında keçirilir. Bu mənada, dünyada mövcud olan təcrübəni nəzərə almaqla, müxtəlif səviyyəli seçkilərin ilin ayrı-ayrı fəsillərində, o cümlədən də əvvəlində keçirilməsi daha məqsədəuyğundur.

Həmçinin Azərbaycan Prezidentinin 7 il müddətinə seçilməsi prezident səlahiyyətlərinin yerinə yetirilməsinə təsərrüfat ilinin əvvəlindən başlamasını təmin edir. Bu da sosial və iqtisadi sahədə qarşıda duran vəzifələrin daha effektli icrasına əlavə imkan yaradır.

Əli Həsənov deyib ki, ötən dövr ərzində Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasət Azərbaycanın milli maraqlarına xidmət edib, ölkənin hərtərəfli və sürətli inkişafı təmin olunub, cəmiyyət həyatının bütün sahələri yeniləşib və müasirləşib, xalqın rifahı yüksəlib. Bu gün Azərbaycan beynəlxalq birliyin böyük nüfuza malik ölkələrindən biri kimi tanınır. Bütün bunlar Azərbaycan xalqının, vətəndaşların, seçicilərin Prezident İlham Əliyevə yüksək etimadını və tam dəstəyini şərtləndirən başlıca amillərdir. Əminliklə demək olar ki, cənab İlham Əliyevin seçkilərdə növbəti dəfə parlaq qələbə qazanmaq və yenidən prezident seçilmək imkanı çox yüksəkdir.

Nəticə etibarilə, seçkilərin oktyabrda və ya apreldə keçirilməsi potensial namizədlərin, o cümlədən də cənab İlham Əliyevin imkanlarını məhdudlaşdıran və onlara əlavə dividend qazandıran hal kimi şərh oluna bilməz.

## "COLUMBİA SHİPMANAGEMENT LTD" BEYNƏLXALQ ŞİRKƏTİN NÜMAYƏNDƏLƏRİ GƏMİÇİLİKDƏ OLUBLAR

***Dənizdə insan həyatının mühafizəsi və quru yük gəmilərinin təhlükəsiz daşıma əməliyyatları sahəsində fəaliyyət göstərən "Columbia Shipmanagement Ltd" beynəlxalq şirkətinin nümayəndə heyəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də olub.***

















Gəmiçiliyin rəhbərliyi ilə görüşdə qonaqlara "AXDG" QSC-nin fəaliyyətini əks etdirən təqdimat nümayiş edilib.

Görüşdə "Columbia Shipmanagement Ltd" şirkəti tərəfindən "AXDG" QSC-nin xidmətlərindən istifadə olunması, o cümlədən Gəmiçiliyin Təlim Tədris Mərkəzində əcnəbi dənizçilər üçün təlimlərin təşkili, həmçinin Bakı Gəmiqayırma Zavodu ilə əməkdaşlığın istiqamətləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

Şirkətin sədri Henrix Şuller ikitərəfli əməkdaşlığın artan xətt üzrə inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycanın qədim dənizçilik ənənələrinə və gəmiçilik sahəsində güclü potensiala malik olduğunu diqqətə çatdıran "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev rəhbəri olduğu qurumun fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verib.

Daha sonra xarici şirkətin nümayəndələri Bakı Gəmiqayırma Zavodunda olublar. Qonaqlara zavodun istehsal gücü haqqında məlumat verilərkən bildirilib ki, regionun ən böyük gəmiqayırma müəssisəsi Finlandiya, Niderland, Almaniya, Çex Respublikası, Böyük Britaniya, Koreya Respublikası və Sinqapurda yüksək standartlar səviyyəsində istehsal olunan avadanlıqlarla təchiz edilib. İstehsal prosesində metalkəsmə, profiləymə, lövhəəymə, 3D borukəsmə rəqəmsal avadanlığı kimi müasir texnoloji vasitələrdən istifadə olunur. Hazırda müəssisədə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə imzalanan müqavilələrə uyğun olaraq, iki "Ro-Pax" tipli unikal gəmi-bərənin və iki neft tankerinin tikintisi uğurla davam etdirilir.

Həmçinin zavodda inşa edilən gəmilərin, o cümlədən dünyada unikal hesab olunan "Xankəndi" gəmisinin tikintisi prosesini əks etdirən videoçarx da nümayiş olunub. Bildirilib ki, bu gəmi xüsusi olaraq nəhəng "Şahdəniz mərhələ 2" işlənilmə layihəsinin sualtı qurğularını quraşdırmaq üçün inşa edilib.

"Columbia Shipmanagement Ltd" beynəlxalq şirkətinin nümayəndə heyəti "AXDG" QSC-nin Təlim Tədris Mərkəzinə də baş çəkiblər. TTM-nin müasir standartlara cavab verən təlim hovuzuna baxış keçirilib. Hovuz "Bütün dənizçilər üçün ilkin hazırlıq və təlimat" məşğələlərin keçirilməsi üçün nəzərdə tutulub.

Mərkəzdəki müasir trenajor və sumulyator otaqları ilə də yaxından tanış olan qonaqlara bildirilib ki, hazırda Təlim Tədris Mərkəzi dünyada "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri, Azərbaycanda isə yeganə təşkilatdır. Dinamik Mövqe Saxlama Simulyatoru dənizçilərin bilik və bacarıqlarının yoxlanılması üçün istifadə olunan sınaq məşğələ trenajorudur.

Məlumat üçün bildirək ki, "Columbia Shipmanagement Ltd" 30 ildən artıq dənizdə insan həyatının mühafizəsi və quru yük gəmilərinin təhlükəsiz daşıma əməliyyatları, həmçinin gəmi heyətinin idarəedilməsi sahəsində fəaliyyət göstərən aparıcı şirkətlərdən biridir. Dünyanın bir çox ölkəsində nümayəndəlikləri olan şirkət ətraf mühitin qorunmasına da xüsusi diqqət ayırır.

# GƏMİÇİLİYİN RƏHBƏRLİYİ QARŞIDA DURAN ŞƏRƏFLİ VƏZİFƏLƏRİN HƏLLİNDƏ YÜKSƏK VƏTƏNDAŞLIQ HİSSLƏRİNƏ MALİK GƏNCLƏRİN TƏŞƏBBÜSKARLIĞINA ARXALANIR




























***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də 2 fevral – Gənclər Günü münasibətilə tədbir keçirilib.***



Tədbirdə AXDG-nin müxtəlif strukturlarında çalışan gənclər, Azərbaycan Dövlət Dəniz Akademiyasının və Dənizçilik Kollecinin fəal tələbələri, tərəfdaş şirkətlərin nümayəndələri iştirak ediblər.

Qeyri-rəsmi formatda keçən görüşdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Gənclər gününün mahiyyətindən danışıb. Bildirib ki, 2 fevral tarixinin Gənclər Günü kimi elan olunması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. "Ümummilli Lider gənclərə xüsusi diqqət və qayğı göstərirdi. Məhz onun sərəncamı ilə 1997-ci ildən ölkədə 2 fevral – Gənclər Günü kimi qeyd edilir. Cənab Prezidentimiz İlham Əliyev də Ulu öndərin gənclərlə bağlı siyasətini uğurla davam etdirir. Aparılan gənclər siyasəti ölkəmizin beynəlxalq arenada layiqli yer tutmasına təkan verib",- deyə sədr qeyd edib.

Gəmiçiliyin rəhbəri onu da vurğulayıb ki, hazırda Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində gənclərin fəallığı artır, onların Azərbaycanın dövlət idarəetmə strukturlarına cəlb edilməsi işi gündən-günə genişlənir.

Rauf Vəliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əməkdaşlarının böyük hissəsinin gənclərdən ibarət olmasını sevindirici hal kimi qeyd edib: "Bu gün gənc kadrlar Gəmiçiliyin fəaliyyətində mühüm rol oynayırlar. Onların arasında rəhbər vəzifələrdə çalışanlar da az deyil. Yaxşı təhsil alan, yaxşı mütəxəssis olan gənclər bundan sonra da Gəmiçilikdə layiq olduqları vəzifələrdə çalışa biləcəklər".

AXDG-nin rəhbəri Heydər Əliyev Fondunun gənclərin hərtərəfli inkişafı üçün gerçəkləşdirdiyi layihələrdən də söz açıb. Qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan layihələr Azərbaycan gəncliyinin dünyadakı maraqlarını layiqincə təmsil edir.

Bakı Gəmiqayırma Zavodu baş direktorunun müavini İmanverdi Həsənov çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasəti özünü tam doğruldub: "Bu gün Azərbaycan gənclərin zəhməti, istedadı hesabına güclü iqtisadiyyata malikdir. Gənclər bütün sahələrdə ümidləri doğruldurlar. Bakı Gəmiqayırma Zavodunda çalışanların əksəriyyəti gənclərdən ibarətdir. Müəssisəmizdə yerli gənc kadrların hazırlanmasına böyük önəm verilir və bu məqsədlə onlar mütəmadi beynəlxalq təlimlərə göndərilirlər. Proses bundan sonra da davam etdiriləcək. Biz gənclərə güvənirik və onların potensialının üzə çıxarılmasında maraqlıyıq".

"Caspian Marine Services" şirkətinin direktoru Zamiq İsmayılov dənizçi təcrübəsini gənclərlə bölüşüb. O, gəncləri bilikli və məqsədlərinə çatmaq üçün prinsipial olmağa çağırıb.

Sədrin müşaviri Titos Giannakakis çıxışında Gəmiçiliyin gənclərlə bağlı siyasətindən danışıb. Gəmiçilikdə perspektivli gənclərin olduğunu qeyd edib.

İnsan Resurslarının İdarəedilməsi Departamentinin rəisi Sevda Məmmədova Gəmiçilikdə gənclərlə iş haqqında təqdimatla çıxış edib. Bildirib ki, güclü azərbaycanlı dənizçi kadr potensialının hazırlanması və ölkədə dənizçi peşəsinin təbliği, Akademiyada təhsilin keyfiyyətinin yüksəlməsi, personalın peşəkarlığının davamlı artırılması, potensiallı gənclərin üzə çıxarılaraq aparıcı vəzifələrə təyin olunması kimi məsələlər əsas prioritetlərdəndir.

Səmimi şəraitdə keçən görüşdə gənclər onları düşündürən suallarla Gəmiçiliyin və tərəfdaş şirkətlərin rəhbərlərinə müraciət ediblər. Suallar göstərib ki, bu gün gəncləri Gəmiçilikdə kadr siyasəti, tədris və istehsalat təcrübələrinin təşkili, sosial problemlərin həlli, donanmanın yeniləşdirilməsi, tələbələrin işlə təminatı və s. məsələlər maraqlandırır. Bütün suallar ətraflı cavablandırılıb, bəzi məsələlər isə yerindəcə həllini tapıb.

Tədbirdə xidməti fəaliyyətində və təhsildə fərqlənən bir qrup gəncə hədiyyələr təqdim edilib.

Sonda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əsas kadr potensialı olan Azərbaycan Dövlət Dəniz Akademiyasının fəaliyyətindən bəhs edən film nümayiş olunub.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU TRANZİT DÖVRİYYƏSİNİN ARTMASINA KÖMƏK EDƏCƏK



***Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı tranzit dövriyyəsinin həcmini artırmağa kömək edəcək.***

Bu barədə "Global Risk Insights" analitik mərkəzinin hesabatında bildirilir.

Qeyd edilib ki, Çin ilə Avropanı birləşdirən üç əsas dəmiryolu marşrut yolundan biri Qazaxıstanın və ya Türkmənistanın dəmir yolu sistemləri vasitəsilə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizidir. Qazaxıstan və Türkmənistandan yüklər Xəzər dənizi vasitəsilə Azərbaycana daşınır. Buradan isə mallar Cənubi Qafqazdan və Türkiyə ərazisindən keçən dəmir yolu şəbəkəsinə yüklənir.

Rusiyadakı yükdaşıma həcmləri əhəmiyyətli dərəcədə artsa da, yeni nəqliyyat marşrutlarının yaradılması Çin üçün maraqlıdır. Cənubi Qafqazdakı BTQ dəmir yolu üzərində işlərin başa çatması Qazaxıstan və Türkmənistan vasitəsilə yükdaşımanı daha da cəlbedici edib. Həmçinin İranın Cənubi Qafqaz və Mərkəzi Asiya ilə genişlənən dəmir yolu əlaqələri də ticarət imkanlarını daha da artırır. Qazaxıstandan dəmir yolu nəqliyyatı ilə Avropaya daşınan yüklərin həcmi 2017-ci ilin noyabrın əvvəllərində 102 min konteynerə çatıb. Növbəti hədəf isə 2020-ci ilə qədər konteynerlərin sayını 2 milyona çatdırmaqdır.

Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı tranzit dövriyyəsinin həcmini artırmağa kömək edəcək.

## XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN RESPUBLİKASINA MƏNSUB SEKTORUNDA 2026 MONİTORİNQ KEÇİRİLİB



***Ötən ildə Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub sektorunda və onun sahil zolağında, eləcə də dənizdə fəaliyyət göstərən müəssisə və obyektlərdə, üzən vasitələrdə 621-i dənizdə olmaqla, ümumilikdə, 2026 monitorinq keçirilib.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsindən bildirilib ki, monitorinqlər zamanı ölkə ərazisindən Xəzər dənizinə tökülən 235 axardan götürülmüş 4483 (su, qazma məhlulu və torpaq) nümunələr üzərində mütəmadi olaraq fiziki-kimyəvi, kimyəvi, mikrobioloji, bioloji və ekotoksikoloji tədqiqatlar aparılıb. Keçirilən monitorinqlər zamanı götürülən su, şlam və torpaq nümunələri üzərində, ümumilikdə, 52854 təhlil aparılıb. Bunlardan 21060 analitik, 14904 ekotoksikoloji, 16890 mikrobioloji təhlillərdir.

Monitorinqlər nəticəsində qeydə alınmış ekoloji problemlər həftəlik və aylıq bülletenlərdə əks olunaraq tədbir görülməsi üçün aidiyyəti dövlət orqanlarına çatdırılıb.

Hesabat dövründə çimərliklərin yay istirahət mövsümünə hazırlığı ilə əlaqədar mütəmadi olaraq çimərlik ərazilərindən götürülmüş su nümunələri üzərində aparılmış tədqiqatlara görə Sumqayıt, Sahil və Şıx çimərliklərinin mikrobioloji baxımdan çirkli olması müəyyən olunub. Bundan başqa, Xəzər dənizinin sahil zolağında quraşdırılmış modul tipli lokal təmizləyici qurğulardan mütəmadi götürülmüş su nümunələri üzərində hərtərəfli tədqiqatlar aparılıb.

Hesabat ili ərzində Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsinin və onun sahil zolağının çirkləndirici maddələrlə çirklənməsinin öyrənilməsi məqsədi ilə Xəzər dənizinin sahil zolağında yerləşən yaşayış sahələrində, Dövlət Neft Şirkətinin müəssisələrində, BP Azərbaycan şirkətinin operatorluq etdiyi "Azəri", "Çıraq", "Günəşli" və "Şahdəniz" yataqlarındakı platformalar ətrafında, limanlarda, yanalma körpülərində və eyni zamanda, dənizə tökülən axarlarda ekoloji monitorinqlər keçirilib.

## ASTARA (İRAN) – ASTARA (AZƏRBAYCAN) DƏMİR YOLU XƏTTİ İLƏ SƏRNİŞİNDAŞIMA DA HƏYATA KEÇİRİLƏCƏK



***Astara (İran) – Astara (Azərbaycan) dəmir yolu xətti istismara verildikdə yüklərin daşınması ilə yanaşı, sərnişindaşıma da həyata keçiriləcək.***

Bu sözləri İranın Dövlət Dəmir Yolları İdarəsinin beynəlxalq əməkdaşlıq şöbəsinin rəisi Abbas Zamani deyib. Onun sözlərinə görə mart ayının sonunda yol istismara veriləcək və ilk sınaq qatarı İrandan Rusiyanın Sankt-Peterburq şəhərinə yola salınacaq.

Azərbaycandan tranzit keçməklə Sankt-Peterburqa tikinti materialları daşıyan yük qatarı göndəriləcək.

A.Zamani bildirib ki, gələcəkdə sərnişinlər Tehran-Moskva qatarı ilə Astaradan keçməklə Rusiyaya gedə biləcəklər.

# AZƏRBAYCAN TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNUN ÇİNİN "KƏMƏR VƏ YOL" TƏŞƏBBÜSÜNÜN TƏRKİB HİSSƏSİ OLARAQ DƏSTƏKLƏNMƏSİNDƏ MARAQLIDIR

***İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərliyi ilə rəsmi şəxslərdən və iş adamlarından ibarət nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub.***

Tərkibinə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin də daxil olduğu yüksək səviyyəli təmsilçilərdən ibarət nümayəndə heyətinin səfəri zamanı bir sıra görüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, Çinin nəqliyyat naziri Li Siaopan ilə keçirilmiş görüşdə nazir Şahin Mustafayev Azərbaycanın Çin ilə ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verdiyini qeyd edib. Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti Çinə 5 səfər edib, dövlət başçısının səfərləri zamanı mühüm razılaşmalar əldə olunub, 2015-ci ildə "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair sənəd imzalanıb. Azərbaycan bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdəndir.



Nazir Şahin Mustafayev Azərbaycan-Çin iqtisadi əlaqələri barədə məlumat verib, ölkələrimizin ticarət, investisiya, maliyyə və texniki əməkdaşlıq sahələrində əməkdaşlıq etdiyini, Çin şirkətlərinin Azərbaycanda müxtəlif layihələrdə iştirakını diqqətə çatdırıb. Azərbaycanın böyük nəqliyyat-tranzit potensialına malik olduğunu qeyd edən Şahin Mustafayev ölkəmizdə enerji resurslarının daşınması üçün müvafiq infrastrukturun yaradıldığını, Şərq-Qərb nəqliyyat dəhlizi çərçivəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərlərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin fəaliyyət göstərdiyini, Cənub Qaz Dəhlizi layihəsinin tərkib hissəsi olan TANAP və TAP layihələrinin icrasının davam etdirildiyini bildirib. Şərq-Qərb nəqliyyat dəhlizi çərçivəsində ötən il Bakı-Tbilisi-Qars dəmiryolu istifadəyə verilib. Azərbaycanın hava, avtomobil və dəniz nəqliyyatı barədə danışan iqtisadiyyat naziri ölkəmizdə 6 beynəlxalq müasir hava limanının fəaliyyət göstərdiyini, Azərbaycanın Xəzər dənizində ən böyük donanmaya sahib olduğunu, Ələt Limanının tikintisinin davam etdirildiyini qeyd edib.





Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun üstünlüklərini diqqətə çatdıran Şahin Mustafayev bu marşrutun coğrafi-iqtisadi, məsafənin və müddətin qısa olması, müvafiq infrastrukturun mövcudluğu baxımından əlverişli olduğunu deyib. İqtisadiyyat naziri Azərbaycan nümayəndə heyətinin Pekində təşkil olunan "Kəmər və Yol" təşəbbüsünün reallaşmasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun rolu"na həsr edilən beynəlxalq konfransda iştirak edəcəyini bildirib.

Nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Çinin "Kəmər və Yol" təşəbbüsünün tərkib hissəsi olaraq dəstəklənməsində maraqlıdır. Bundan başqa, "Kəmər-Yol" təşviqinə dair Azərbaycanda tədbir keçirilə, Çin şirkətləri Ələt azad ticarət zonasına cəlb oluna, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ilə konteyner terminalının tikintisi və idarə edilməsi üzrə əməkdaşlıq həyata keçirilə bilər.

Çinin nəqliyyat naziri Li Siaopan ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusilə nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi perspektivləri barədə fikirlərini bildirib, Azərbaycan tərəfinin təkliflərinin öyrənilib reallaşdırılması üçün tədbirlər görüləcəyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Çinin kommersiya nazirinin müavini, Beynəlxalq ticarət məsələləri üzrə nümayəndəsi Fu Ciyin ilə keçirilmiş görüşdə iki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb, iqtisadi-ticarət sahəsində Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin 43 faiz artdığını, ölkəmizdə 100-dən çox Çin şirkətinin fəaliyyət göstərdiyini, 2016-cı və 2017-ci illərdə Çinin Honq-Konq, Quancou və Şanxay şəhərlərinə Azərbaycanın ixrac missiyalarının təşkil edildiyini, şərablarımızın vahid ölkə stendi ilə nümayiş olunduğunu qeyd edib. Azərbaycan və Çin iş adamlarının iştirakı ilə 8 biznes-forum keçirilib.

Nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, Azərbaycanın bir sıra kənd təsərrüfatı və emalı, sənaye məhsullarının Çinə ixracı üçün böyük potensialı var və bu məhsulların ixracına dair müvafiq icazələrin verilməsinə Çin tərəfinin dəstəyi əhəmiyyətlidir.

Azərbaycan nümayəndə heyəti ilə görüşündə Çinin kommersiya nazirinin müavini, Beynəlxalq ticarət məsələləri üzrə nümayəndəsi Fu Ciyin Azərbaycanla iqtisadi-ticarət əməkdaşlığına önəm verildiyini vurğulayıb, əlaqələrin inkişafı istiqamətində fikirlərini bildirib.

Azərbaycan nümayəndə heyətinin Şenjen Şəhər Regional İqtisadi Əməkdaşlıq Assosiasiyası və Çin Dəmir Yolunun XIX Bürosunun nümayəndələri ilə görüşündə Şenjen Şəhər Regional İqtisadi Əməkdaşlıq Assosiasiyasının fəaliyyəti barədə Azərbaycan tərəfinə məlumat verilib, qeyri-neft sektorunun müxtəlif sahələrində, xüsusilə sənaye sahəsində əməkdaşlıq, eləcə də 2017-ci ildə Qaradağ Rayon İcra Hakimiyyəti ilə Şenjen şəhər Regional İqtisadi Əməkdaşlıq Assosiasiyası arasında Ələt qəsəbəsində Azərbaycan-Çin Azad İqtisadi Sənaye Şəhərciyinin yaradılmasına dair imzalanmış saziş barədə müzakirələr aparılıb.

Fevralın 6-da Çin Xalq Respublikasının paytaxtında "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşmasında Transxəzər Beynəlxalq Şərq-Qərb Ticarət və Tranzit dəhlizinin rolu mövzusunda beynəlxalq konfrans keçirilib.

Azərbaycanın təşəbbüsü, Türkiyə, Qazaxıstan və Gürcüstanın Pekindəki səfirliklərinin təşkilatçılığı, Çinin Kommersiya Nazirliyinin dəstəyi ilə keçirilən konfrans Transxəzər Beynəlxalq Şərq-Qərb Ticarət və Nəqliyyat dəhlizinin təşviqi məqsədi daşıyıb.

Konfransın açılışında Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev, Çin kommersiya nazirinin müavini Van Şouven, Türkiyənin iqtisadiyyat nazirinin müavini Fatih Metin, Qazaxıstanın investisiya və inkişaf nazirinin müavini Roman Sklyar, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Georgi Çerkezişvili çıxış ediblər.

Sonra Transxəzər Beynəlxalq Şərq-Qərb Ticarət və Nəqliyyat dəhlizinə dair film nümayiş olunub, panel iclasları keçirilib.

Beynəlxalq konfrans çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayev Türkiyə, Qazaxıstan və Gürcüstan nümayəndə heyətlərinin rəhbərləri ilə görüşüb.

Türkiyənin iqtisadiyyat nazirinin müavini Fatih Metin ilə keçirilmiş ikitərəfli görüşdə 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin 16 faiz artdığı, qarşılıqlı investisiya qoyuluşlarının davam etdiyi, Türkiyənin də iştirakçısı olduğu Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verildiyi, digər layihələr üzrə işlərin davam etdirildiyi məmnunluqla vurğulanıb, ölkələrimiz arasındakı iqtisadi əlaqələrin mövcud vəziyyəti və genişləndirilməsi, nəqliyyat və tranzit yükdaşımaları sahəsində əməkdaşlığın, ticarət əlaqələrinin inkişafı məsələləri müzakirə edilib.

Nazir Şahin Mustafayevin Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Georgi Çerkezişvili ilə görüşündə ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi, birgə layihələrin reallaşdırıldığı vurğulanıb, ötən il istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunun əlaqələrimizin inkişafında əhəmiyyəti qeyd olunub. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar barədə məlumat verən nazir Şahin Mustafayev Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrinin genişləndirilməsi imkanlarına dair fikirlərini bölüşüb.

İqtisadiyyat naziri Şahin Mustafayevin Qazaxıstanın investisiya və inkişaf nazirinin müavini Roman Sklyar ilə keçirilmiş görüşündə ölkələrimiz arasında iqtisadi-ticarət, investisiya sahəsində əlaqələr, nəqliyyat-tranzit əməkdaşlığı, iş adamları arasında əlaqələrin genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib, əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

İpək Yolu Fondunun prezidenti Vanq Yanci ilə görüşündə nazir Şahin Mustafayev Azərbaycan Respublikası Prezidentinin 2015-ci ildə Çinə dövlət səfəri zamanı imzalanmış "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair sənədi xatırladaraq Azərbaycanın bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, ölkəmiz Çinin "Kəmər və Yol" təşəbbüsünü dəstəkləyir və bu strategiya Transxəzər nəqliyyat dəhlizi ilə üst-üstə düşür. Şahin Mustafayev bu gün keçirilmiş "Kəmər və Yol" təşəbbüsünün reallaşmasında "Transxəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizinin rolu" mövzusunda Beynəlxalq konfransın Transxəzər nəqliyyat dəhlizinin önəminin və üstünlüklərinin təbliği baxımından əhəmiyyətini qeyd edib.

İpək Yolu Fondunun prezidenti Vanq Yanci rəhbərlik etdiyi fondun fəaliyyəti barədə məlumat verib, qurumun infrastruktur, enerji və təbii ehtiyatlar, sənaye və maliyyə əməkdaşlığı sahələrinə investisiyalar yatırdığını vurğulayıb. Vanq Yanci Azərbaycana Çin ilə əlaqələrin inkişafına və "Kəmər və Yol" strategiyasının həyata keçirilməsinə verdiyi dəstəyə görə təşəkkür edib, ölkəmizin vacib tranzit ölkə olduğunu deyib.

Fevralın 6-da Pekində Azərbaycan-Çin biznes-forumu keçirilib. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Çinin Kommersiya Nazirliyi və Beynəlxalq Ticarətin Təşviqi üzrə Çin Şurasının birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə sənaye, tikinti, nəqliyyat, logistika, investisiya, kimya, tekstil və s. sahələrdə fəaliyyət göstərən iş adamları iştirak edib.

Biznes-forumda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanın Çin ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini, əməkdaşlığın bütün sahələrdə genişlənməsində maraqlı olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan və Çin dövlət başçıları arasında mövcud olan fəal siyasi dialoq ikitərəfli əlaqələrin iqtisadi, humanitar və digər sahələrdə inkişafı üçün möhkəm təməldir. Nazir bildirib ki, "Kəmər və Yol" təşəbbüsü çərçivəsində "Transxəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi"nin potensialından istifadə iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır.

Çin Xalq Respublikasının Kommersiya Nazirliyinin Avrasiya işləri idarəsinin baş direktoru Luo Veidonq ölkəsinin Azərbaycanla əlaqələrə önəm verdiyini və ölkəmizlə əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib. Qeyd olunub ki, ölkələrimiz iqtisadiyyatın müxtəlif sahələrində uğurla əməkdaşlıq edir və bu əlaqələrin inkişafı üçün imkanlar genişdir.

"Biznes-forum iş adamları arasında ikitərəfli görüşlərlə davam etdirilib.

"Çinlə tranzit sahəsində əməkdaşlıq prioritet istiqamətlərdəndir. Çinin "Kəmər və Yol" təşəbbüsünün reallaşmasında Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti böyükdür. Bu dəhlizin potensialından istifadə iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit sahəsində əməkdaşlıq üçün əlverişli zəmin yaradır".

Bu barədə fevralın 7-də Çinin Sian şəhərində "Kəmər və Yol təşəbbüsünün təşviqində Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin rolu" mövzusunda təqdimatda iqtisadiyyat naziri Şahin Mustafayev bildirib.

Qeyd edək ki, tədbir İpək Yolu Beynəlxalq Ticarət Palatasının və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı, Azərbaycan və Çin tərəfindən rəsmi şəxslərin və iş adamlarının iştirakı ilə keçirilib. Çıxışında nazir Şahin Mustafayev Azərbaycan Respublikası Prezidentinin 2015-ci ildə Çinə dövlət səfərini məhz İpək Yolunun başlanğıcı olan Sian şəhərindən başladığını vurğulayıb, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə genişləndiyini qeyd edib, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin rəqabət qabiliyyəti və üstünlükləri barədə məlumat verib: "Azərbaycanın Çindən Avropa İttifaqına və əksinə tranzit imkanları genişdir. Transxəzər nəqliyyat dəhlizi Çinlə Avropa arasında ən qısa dəhlizdir. Çindən Avropaya ənənəvi okean daşımaları 60 günə reallaşdığı halda, bu dəhliz vasitəsilə daşımalar 14 günə həyata keçiriləcək. Dəhliz iştirakçı ölkələrə fayda verəcək, regionda sabitliyi artıracaq və insanlar üçün bərabər imkanlar yaradacaq. Dəhlizin rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə region ölkələri arasında koordinasiya gücləndirilib, tranzit müddəti qısaldılıb, prosedurlar sadələşdirilib. Dəhlizin digər üstünlüyü 114 milyon əhalisi, 1,1 trilyon ABŞ dollarına yaxın ÜDM-yə malik Transxəzər Tranzit Dəhlizinin iştirakçısı olan Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstanda siyasi stabillik hökm sürür, davamlı iqtisadi artım müşahidə olunur".

Azərbaycan-Çin iqtisadi əlaqələri, ticarət və investisiya əməkdaşlığı barədə məlumat verən Şahin Mustafayev ölkəmizin investisiya cəlbediciliyi barədə danışıb, çinli iş adamlarını Azərbaycanda qeyri-neft sektoruna sərmayə yatırmaq üçün geniş imkanlardan bəhrələnməyə dəvət edib. Nazir Şahin Mustafayev qeyd edib ki, Azərbaycan siyasi baxımdan stabildir, güclü iqtisadi potensiala malikdir, Dünya İqtisadi Forumunun hesabatına əsasən, dünyada 36-cı ən təhlükəsiz ölkədir, əlverişli biznes və investisiya mühiti yaradılıb, Cənubi Qafqazın siyasi, iqtisadi, tranzit və mədəni mərkəzi, beynəlxalq tədbirlər məkanıdır. Müstəqillik illərində ölkə iqtisadiyyatına 248 milyard ABŞ dolları investisiya yatırılıb ki, bunun yarısından çoxu xarici investisiyalardır.

Şanxi Əyalətinin Kommersiya Departamentinin direktor müavini Tanq Yonqanq, Beynəlxalq Ticarət üzrə İpək Yolu Palatasının baş katibi Li Zhonqhanq və palatanın baş katibinin müavini Huanq Dahai çıxışlarında tarixi İpək Yolu, Çinin "Kəmər və Yol" təşəbbüsü və bu strategiyanın reallaşmasında Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti barədə danışıblar.

Tədbirdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov Azərbaycanın nəqliyyat və tranzit potensialı, ölkəmizdə yaradılmış əlverişli və müasir infrastruktur barədə məlumat verib, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin Çin və Avropanı birləşdirən əhəmiyyətli marşrut olduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, Azərbaycanda dəmir yolu infrastrukturu yenilənib, dəhlizin rəqabət qabiliyyətinin artırılmasında xüsusi əhəmiyyəti olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verilib, Bakı limanının birinci fazası isə yaxın aylarda istismara veriləcək.

Tədbirdə AZPROMO-nun rəhbəri Rüfət Məmmədov Azərbaycanın investisiya mühiti və biznes imkanlarına dair təqdimatla çıxış edib, həmçinin Azərbaycanın nəqliyyat potensialı və Bakının "Ekspo 2025" sərgisinə namizədliyinə dair təqdimat çarxları nümayiş olunub.

***Şahin Cəfərov***

## GƏNC DƏNİZÇİNİN "GƏMİ SÜKAN QURĞULARININ DİAQNOSTİKASI" KİTABI XARİCDƏ ÇAP EDİLİB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin ikinci mexaniki Səid Orucovun "Gəmi sükan qurğularının diaqnostikası" kitabı Almaniyanın Lambert nəşriyyatında çap edilib.***




Belə ki, Səid Orucov Azərbaycan Dövlət Dəniz Akademiyasının magistratura pilləsinin sonuncu kursunda oxuyarkən eyni mövzuda dissertasiya işi hazırlayıb. Daha sonra yazını Sankt-Peterburqun "Gəmi quruculuğu" jurnalına göndərib. Yazı çap edildikdən sonra Almaniyanın Lambert nəşriyyatı Səid Orucov və onun kitabı ilə maraqlanmağa başlayıb.

"Nəşriyyatdan mənə yazdılar ki, sizin işi görmüşük. Biz gənc alim və mütəxəssislərin yeniliklərini çap edirik. Etiraz etmirsinizsə, müdafiə işinizi tam variantda bizə göndərin. Dərhal göndərdim və qısa müddətdə kitabın ilk nəşri işıq üzü gördü",-deyə Səid Orucov bildirir.

Kitabda ciddi riyazi hesablamalar, istismara aid məsələlər əksini tapıb. Təmirin ucuz və keyfiyyətli aparılması, sükan qurğularının çatışmayan cəhətlərindən danışılır.

Xatırladaq ki, Səid Orucovun dissertasiya işinin elmi rəhbəri Vaqif Osmanovdur.

"Gəmi sükan qurğularının diaqnostikası" kitabı hazırda dünyanın bir çox nüfuzlu kitabxanalarında və online satış platformalarında mövcuddur. Qiyməti 25 avrodur.

Səid Orucov 2013-2015-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğuları və onların istismarı mühəndisliyi" ixtisası üzrə magistr səviyyəsində təhsil alıb. 2015-ci ildən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində üzür.

## MALAYZİYANIN İTKİN DÜŞƏN TƏYYARƏSİNİ AXTARAN GƏMİ ÜÇ GÜNDƏN ÇOX RADARLARDA GÖRÜNMƏYİB



***2014-cü ilin martında itkin düşmüş Malayziya Hava Yollarına məxsus sərnişin təyyarəsinin axtarışlarını davam etdirən ABŞ-ın "Ocean Infinity" şirkətinin "Seabed Constructor" gəmisi 3 gündən artıq müddətdə özünün geolokasiya mövqeyi barədə məlumat verməyib.***

"Fox News" telekanalı xəbər verir ki, gəmi axtarışlara yanvarın 22-də Hind okeanının Avstraliya sahillərində başlayıb. Təyyarənin parçalarını tapmaq üçün sualtı aparatlardan və hidrolokatorlardan istifadə edilir. Fevralın 1-dən başlayaraq, "Seabed Constructor" gəmisinin Avtomat Eyniləşdirmə Sistemində (AES) mövqeyi barədə informasiyanın yenilənməsi dayanıb. Gəmin radarlarda yalnız 80 saat sonra görünüb. Hazırda gəminin Avstraliyanın Pert şəhəri istiqamətində hərəkət etdiyi bildirilir. "Ocean Infinity" şirkəti hadisəni şərh etməkdən imtina edib.

Geolokasiya sistemləri üzrə mütəxəssis Riçard Kolun sözlərini sitat gətirən "Fox News" telekanalı bildirib: "AES-in ötürücüsü söndürülüb. Məsələ burasındadır ki, bu, ya yeni marşrut təyin edilərkən heyətin səhvi üzündən baş verib, ya da qəsdən törədilib".

Mütəxəssislərin sözlərini əsas gətirən telekanal qeyd edir ki, olduğu yer barədə məlumatı gizlədən gəmi ola bilsin, təyyarənin əvəzinə xəzinə axtarışı ilə məşğul olub. Belə ki, 2016-cı ildə axtarış əməliyyatlarının aparıldığı ərazidə XX əsrin əvvəllərində batmış gəminin parçaları aşkarlanıb.

Xatırladaq ki, göyərtəsində 239 nəfərin olduğu Malayziya Hava Yollarına məxsus "Boeing 777-200" sərnişin təyyarəsi 2014-cü il martın 8-də radarlardan itib. Təyyarənin Hind okeanında qəzaya uğradığı güman olunur. Axtarış əməliyyatları nəticəsində təyyarənin düşdüyü ərazi müəyyən edilməyib.

***Vüqar Ağayev***

## TANKERİN QULDURLAR TƏRƏFİNDƏN OĞURLANDIĞI EHTİMAL EDİLİR

***Hindistanda özəl şirkətə məxsus 22 nəfər heyəti olan neft tankeri ilə əlaqə yanvarın 31-dən etibarən kəsilib.***

Bu barədə Hindistanın xarici işlər naziri Sushma Swaraj deyib.

O bildirib ki, Mumbaydakı özəl şirkətə məxsus "Marine Express" adlı bir neft tankeri Qvineya Körfəzində yoxa çıxıb. Benin limanından yola çıxan tanker ilə əlaqə Qvineya Körfəzi ətrafında kəsilib. Heyəti 22 nəfərdən ibarət tankerin axtarışı üçün Nigeriya və Benin Dəniz Qüvvələrindən kömək istənilib.

Şirkət nümayəndələri 13,5 min ton neft yüklənən tankerdən yanvarın 31-dən etibarən xəbər almadıqlarını bildiriblər.

Tankerin quldurlar tərəfindən oğurlandığı ehtimal edilir.



# AVROPA İTTİFAQI BAKI LİMANININ BEYNƏLXALQ LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİNİ DƏSTƏKLƏYİR

***Avropa İttifaqı Bakı Limanını beynəlxalq logistika və ticarət mərkəzinə çevrilməsi baxımından dəstəkləyir və gələcəkdə də dəstəkləyəcək.***

Bu fikri Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey Azərbaycana səfəri çərçivəsində yanvarın 30-da Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə tanışlıq zamanı deyib.

Qonağı Bakı Limanında gedən işlərlə tanış edən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov H.Hololeyin diqqətinə çatdırıb ki, yeni Bakı Limanının inşası Prezident İlham Əliyevin ölkənin regional nəqliyyat qovşağına (hab) çevrilməsi siyasətində mühüm yer tutur. Cari ilin ortalarında tikinti işləri bitməklə 12 körpüdən ibarət olacaq limanın yükaşırma qabiliyyəti 15 milyon ton yük, o cümlədən 100 min konteyner (TEU) olacaq. Ümumiyyətlə isə bütün inşa işləri bitdikdən sonra liman mövcud 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yük aşıra biləcək.




Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey yeni Bakı Limanın Avropa-Asiya ticarət dövriyyəsində mühüm yer tutduğunu qeyd edib: "Azərbaycan Avropanın yaxın tərəfdaşıdır və biz bu tərəfdaşlığı daha da inkişaf etdirmək niyyətindəyik. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi mühüm rol oynayır. Mən çox məmnunam ki, Avropa İttifaqı həm əməliyyat imkanlarının artırılması, həm də beynəlxalq logistika və ticarət mərkəzinə çevrilməsi baxımından Bakı Limanını dəstəkləyir və gələcəkdə də dəstəkləyəcək. Bu müasir liman genişlənmiş Avropanın Trans-Avropa şəbəkəsinin (TNT-T) bir hissəsidir".

Baş direktor Taleh Ziyadov qonağın nəzərinə çatdırıb ki, Avropa Komissiyasının gündəmində vacib yer tutan bağlılıq, regional ticarət və logistika "hab"larının yaradılması Bakı Limanının da diqqət mərkəzindədir.

Baş direktor bildirib ki, "Aİ və Asiya arasındakı ticarət dövriyyəsinin artdığını nəzərə alaraq, Bakı Limanı bu inkişafa hazırdır, ticarət və xüsusən rəqəmsal dəhlizin yaranmasına töhfə verməkdədir. Limanda tətbiq olunmağa başlanan IT sistemi bütün əməliyyatları avtomatlaşdırıb, yük sahibinə onlayn rejimdə yükə nəzarət etmək, bizim ərazidəki yerini təyinetmə və sair üstünlüklər verir".

2017-ci ilin yanvar ayından etibarən Avropa İttifaqının Bakı Limanının əməliyyat imkanlarının yaxşılaşdırılmasına dair dəstək layihəsinin icrasına başlanılıb. Layihə çərçivəsində Aİ-nin Antverp, Hamburq, Koper və Triest kimi qabaqcıl limanlarına təlim səfərləri təşkil olunub və təcrübə mübadiləsi aparılıb. Ümumiyyətlə, Bakı Limanının müasir və şəffaf prinsiplərə söykənən əməliyyat sistemi, "yaşıl" və "smart" texnologiyalardan istifadəsi Avropa İttifaqı tərəfindən dəstəklənir.

## AVROPA KOMİSSİYASI BAKI LİMANININ GƏLƏCƏK İNKİŞAFI ÜÇÜN 1 MİLYON AVRO TEXNİKİ YARDIM AYIRIB



***Avropa Komissiyası Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gələcək inkişafı üçün 1 milyon avro texniki yardım ayırıb.***

Bu barədə Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Bakı Limanı Avropa və Asiya arasında ticarət dövriyyəsində mühüm yer tutur. Bakı Limanı və bir sıra beynəlxalq dəhlizlərin Azərbaycandan keçməsi buranı tranzit ölkəyə və logistika mərkəzinə çevirir. Azərbaycan bu sahədə mühüm planlar üzrə çalışır. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi də bu planlara daxildir və mühüm addımdır.

H.Hololey qeyd edib ki, Bakı limanının fəaliyyəti və Bakı-Tbilisi-Qars dəmir yolu xətti logistika və nəqliyyat xərclərinə qənaət etməyə imkan yaradır. Bu alternativ marşrut ilə yüklər daha tez və ucuz başa gələ bilər. Bu işdə Bakı Limanının rolu xüsusi ilə qeyd edilməlidir.

# DƏNİZ MÜHİTİNİN MÜHAFİZƏSİNƏ TARİXİ BAXIŞ

***İnsan cəmiyyəti əsrlər boyu su mühitindən (çaylar, göllər, dəniz və okeanlar) maye və bərk çirkab məişət-təsərrüfat tullantılarının atılma yeri kimi istifadə edib. XX əsrin əvvəlinədək bu atqılar indiki ilə müqayisədə çox da böyük deyildi və günəşin, havanın, habelə suda həll olmuş oksigenin hesabına təbiət su hövzələrinin özünübərpasına müvəffəq olurdu. XIX əsrin son onilliklərindən başlayaraq şəhər infrastrukturlarının intensiv böyüməsi və artması, habelə yüngül və ağır sənayenin, (o cümlədən maşınqayırma və dəniz nəqliyyatının), xüsusilə də neft sənayesinin sürətli inkişafı, həmçinin təbii sərvətlərdən (xüsusilə də neftdən) istifadə intensivliyinin yüksəlməsi və digər amillərin təsiri nəticəsində su mühitinin çirklənmə miqyası total səciyyə daşımağa başladı. Yalnız çaylar və göllər deyil, dənizlər, hətta okeanlar da güclü çirklənməyə məruz qaldı.***



İnsanlar yalnız yaxın keçmişdə Yerin su resurslarının məhdudiyyətsiz özünübərpa güçünə malikliyi fikrinin yanlış olması qənaətinə gəliblər.

Dünyanın əksər regionlarında çay və göllərə atılan bərk və maye çirkləndiricilərin miqdarı elə böyük həddə çatlmışdır ki, həmin su hövzələri faktiki olaraq artıq özünütəmizləmə iqtidarında deyillər. Məsələn, Qərbi Avropanın Temza, Severn, Sena, Tibr, Reyn, Dunay, Şərqi Avropanın Volqa, Don, Şimali Amerikanın Missisipi, Potomak və Oqayo çayları güclü çirklənməyə məruz qalaraq hazırda daha çox "çirkab su arxı" vəziyyətinə düşüblər.

Məlum olub ki, dəniz mühitinin deqradasiyası xeyli sayda mənbələrdən asılıdır. Deqradasiyaya səbəbin 10%-i dəniz nəqliyyatının, 10%-i birbaşa dənizə atılan tullantıların, 10%-i isə təbii mənbələrin (məsələn, qriffonların) paylarına düşürsə, 70 %-i qurudakı mənbələrin payına düşür.

Dəniz mühitinə növbəti çirkləndiricilər ən böyük təhlükədirlər: çirkab sular, qida elementləri, sintetik üzvi birləşmələr, çöküntülər, zibil və plastik məmulatlar, metallar, radionukliddlər, neft/karbohidrogenlər, politsiklik aromatik karbohidrogenlər və s. Quru mənbələrindən dənizə düşən bir çox çirkləndiricilər, həm toksiki, həm də parçalanmayan (bu səbəbdən də toplanma imkanlı) olduqlarından dəniz mühiti üçün daha təhlükəlidirlər. Bu günə kimi dəniz mühitinin quru mənbələrindən çirklənməsi ilə mübarizəyə dair heç bir qlobal plan yoxdur.

Dəniz və okeanların insan fəaliyyəti ilə bağlı çirklənməsi səbəblərinə texnologiyalara riayət olunmaması, texnogen hadisə və qəzalarla yanaşı, müharibə amilini də göstərmək olar. Belə ki, Böyük Vətən müharibəsi illərində sovetlərin Qızıl Ordusunun hərbi nəqliyyat və uçuş texnikasının əksər yanacaq tələbatını ödəyən Azərbaycan nefti müxtəlif üzən vasitələrlə, o cümlədən yedəyə götürülmüş barjlar və adi çənlər vasitəsilə Bakıdan Xəzərin şimal akvatoriyalarına daşınırdı. Həmin çənlərin müəyyən hissəsi düşmən aviasiyasının həmlələri zamanı zədələnib batırdı ki, nəticədə yüz tonlarla neft dənizi çirkləndirirdi. Müharibə illərində "Hər şey Cəbhə üçün, hər şey Qələbə üçün!" şüarına önəm verildiyindən, "Böyük Qələbə" ilə müqayisədə çox cüzi əhəmiyyətli sayılan neft dağılmalarının mənfi təsirinə diqqət yetirilməsə də, sonrakı on illiklərdə digər texnogen məqamlarla yanaşı, bu amil də Xəzərin, o cümlədən Azərbaycan sektorunun ekoloji vəziyyətində özünü biruzə vermişdir.

Yuxarıda göstərildiyi kimi, gəmiçilik və dəniz fəaliyyəti dəniz mühitini çirkləndirən amillərdəndir. Aparılmış təhlillərə əsasən hər il dəniz daşımaları, qəza hadisələri və qeyri-qanuni atqılar nəticəsində dəniz və okeanlara təxminən 600 000 ton neft və neft məhsulları axıdılır ki, bu da öz növbəsində dəniz mühitinin ekoloji stabilliyinə mənfi təsir (dəniz səthini örtərək suyun havadakı oksigenlə zənginləşməsinə imkan verməməklə həmin akvatoriyadakı fauna və floranın məhvinə səbəb olur) göstərir.

Dünya hidrosferinin məhv olmasına yol verməmək üçün ictimaiyyət son 70 ildə xəbərdarlıq təbili çalaraq lazımi yönümdə işlər görməyə və həmin tədbirləri qanuniləşdirmək məqsədilə hüquqi baza yaratmağa başladılar. Keçən əsrin 50-ci illərində ictimai ekoloji hərəkatın kütləvi xarakter alması ekoloji hüququn və qanunvericiliyin yaranması və inkişafına güclü təkan vermiş oldu.

Beynəlxalq səviyyədə mühafizə olunmasına başlanmış ilk ekoloji sferalardan biri dəniz mühitidir. 1954-cü ildə Londonda qəbul olunmuş ilk universal ekoloji konvensiya dənizin neftə çirklənməsinə yol verilməməsinə həsr olunmuşdur. Həmin konvensiya neftin və neft-su qarışığının gəmilərdən dənizə atılmasını tam qadağan edirdi.

Sonrakı dövrdə tankerlərdə baş vermiş qəzalar silsiləsindən sonra 1969-cu ildə Brüsseldə qəbul olunmuş konvensiya qəza hallarında sahil ölkələrin müdaxilə etmələrinə həsr olunmuşdu. Həmin konvensiyaya əsasən sahil ölkələrinə, dağılmış neftin sahili və sahilyanı su zolağını çirkləndirmə ehtimalı çox böyük olacağı təqdirdə, qəzaya uğramış gəmini və ya yükü məhv etmək səviyyəsinədək yüksək səlahiyyətlər verilmişdi. Həmin konvensiyaya əlavə edilmiş 1973-cü il Protokolu analoji hallarda dənizin başqa maddələrlə də çirklənmələri ilə mübarizəyə yol açmış oldu.

Təbii ki, neftlə çirklənmənin vurduğu zərərin kompensasiyası barədə məsələ beynəlxalq qanunvericilikdə öz əksin tapmalı idi. 1969-cu ildə Brüsseldə qəbul olunmuş və 1976-cı il Protokolu ilə təkmilləşdirilmiş "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" Beynəlxalq Konvensiyası təqsir dərəcəsindən asılı olmayaraq gəmi sahiblərinin mütləq məsuliyyətini müəyyənləşdirdi, habelə cavabdehliyin səviyyə ölçülərini yüksək hüdudlar daxilində təyin etdi (Azərbaycan Respublikası həmin Konvensiyaya və müvafiq Protokola 18 iyun 2004-cü il tarixli № 693-IIQ Qanunla qoşulmuşdur).

29 dekabr 1972-ci il tarixdə Londonda "Dənizin qalıqların və digər materialların atqıları ilə çirkləndirilməsinin qarşısının alınmasına dair" beynəlxalq konvensiya qəbul olundu (Azərbaycan Respublikası həmin Konvensiyaya 22 aprel 1997-ci il tarixli № 274-IQ Qanunla qoşulmuşdur).

1973-cü ildə isə Beynəlxalq Dəniz Təşkilatının (BDT) egidası altında "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" MARPOL beynəlxalq konvensiyası və ona Əlavə Protokollar (1978, 1997) qəbul olunub qüvvəyə mindi (Azərbaycan Respublikası 18 iyun 2004-cü il tarixli Qanunlarla (№ 696-IIQ, № 697-IIQ) həmin beynəlxalq müqaviləyə və protokollarına qoşulmuşdur).

Növbəti illərdə dənizdə neft dağılmaları ilə bağlı daha 2 konvensiya qüvvəyə minmişdir:

- 1990-cı ildə "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" beynəlxalq konvensiya qəbul olunub qüvvəyə mindi (Azərbaycan Respublikası həmin konvensiyaya 18 iyun 2004-cü il tarixli № 690-IIQ Qanunla qoşulmuşdur);

- 2001-ci il martın 23-də Londonda "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" beynəlxalq konvensiya qəbul olundu (Azərbaycan Respublikası həmin konvensiyaya 5 mart 2010-cu il tarixli № 968-IIIQ Qanunla qoşulmuşdur).

Dəniz mühitinə dair ekoloji əhəmiyyətli digər beynəlxalq normativ akt 2004-cü ildə qəbul olunub 2017-ci ilin sentyabr ayında qüvvəyə minmiş "Gəmi ballast sularına və çöküntülərə nəzarət, onların idarə olunması haqqında" beynəlxalq konvensiyadır.

Yuxarıda göstərilənlərdən savayı, Birləşmiş Millətlər Təşkilatı xətti ilə dəniz ekologiyası yönümlü aşağıdakı konvensiyalar qəbul olunub:

- 1992-ci il martın 17-də Helsinkidə «Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə» konvensiya (Azərbaycan Respublikası həmin konvensiyaya 18 iyul 2000-cı il tarixli № 830-IQ Qanunla qoşulmuşdur);

- 1997-ci il dekabrın 11-də Kiotoda «İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasına dair» Protokol (Azərbaycan Respublikası həmin sənədə 18 iyul 2000-cı il tarixli № 912-IQ Qanunla qoşulmuşdur).

Bundan savayı, digər beynəlxalq və regional əhəmiyyətli aşağıdakı müqavilələr qüvvəyə minmişdir:

- 1974-cü idə Baltikyanı ölkələr Xelsinkidə "Baltik dənizi rayonunun dəniz mühitinin mühafizəsinə dair", 1994-cü ildə isə daha sərt tələblər irəli sürülən "Baltik dənizinin təbii mühitinin mühafizəsinə dair" 2 konvensiya imzalamışdır.

- 1992-ci il 21 apreldə Buxarestdə "Qara dənizin çirklənmədən mühafizəsi haqqında" konvensiya qəbul edilmişdir;

- 2003-cü il 4 noyabrda Tehranda "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında» Çərçivə Konvensiyası imzalanmışdır (Azərbaycan Respublikası həmin sənədi 4 aprel 2006-cı il tarixli № 89-IIIQ Qanunla təsdiq etmişdir).

Quru yük gəmiləri, tankerlər və bərələr vasitəsilə müxtəlif növ dəniz daşımalarını, habelə Xəzərin kontinental şelfində neft-qazçıxarma obyektlərinə nəqliyyat-texnoloji xidmət göstərilməsini həyata keçirən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin çoxşaxəli fəaliyyətində ətraf mühitin mühafizəsi əsas davamlı inkişaf meyarlarından biri sayılır. Gəmiçilik bu istiqamətdə işini yuxarıda sadalanan və digər ekoloji yönümlü beynəlxalq müqavilələr, milli qanunvericilik aktlara ("Ətraf mühitin mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında" "İcbari ekoloji sığorta haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Ətraf mühitə dair informasya almaq haqqında", "Əhalinin ekoloji təhsili və maariflǝndirilməsi haqqında", "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Qanunlar və digər yerli hüquqi mənbələr), habelə Cəmiyyətin daxili normativ sənədlərinə istinad etməklə qurur.

Gəmiçiliyin ətraf mühitin mühafizəsi yönümlü normativ sənədlərinə:

a) 4-cü *(çox az təklükəli)* kateqoriyaya aid Xəzər Dəniz Neft və Dəniz Nəqliyyat Donanmaları və İstehsalat Xidmətləri İdarəsi üçün 4-5 il müddətinə qüvvədə olan "Yol verilən atqı normaları layihəsi", "Yol verilən tullantı normaları layihəsi", "Təhlükəli tullantıların inventarizasiyası və pasportlandırılması" və onların əsasında tərtib olunub razılaşdırılan "Ekoloji Pasport" sənədləri;

b) 3-cü kateqoriyaya *(az təklükəli)* aid "Bibiheybət" Gəmi Təmiri, habelə "Zığ" Gəmi Təmiri və Tikintisi zavodları üçün 3-4 il müddətinə qüvvədə olan "Yol verilən atqı normaları layihəsi", "Yol verilən tullantı normaları layihəsi", "Təhlükəli tullantıların inventarizasiyası və pasportlandırılması" və onların əsasında tərtib edilib razılaşdırılan "Ekoloji Pasport" sənədləri daxildir.

Bunlardan savayı, Cəmiyyətin özü, habelə yuxarıda sadalanan hər bir struktur vahidi üçün hər ilin sonunda növbəti il üçün ekoloji fəaliyyəti uzlaşdıracaq "Ətraf mühitin mühafizəsinə dair illik Tədbirlər Planı" tərtib olunub səlahiyyətli dövlət qurumu ilə razılaşdırılır. Habelə, Gəmiçiliyin hər bir struktur qurumu illik göstəricilərə istinad olunmaqla 2-TG (Su təsərrüfatı), 2-TG (Hava), 2-TG (Təhlükəli tullantılar) və 4-ƏM (Ətraf mühit xərclər) kimi dövlət statistik hesabat formalarını tərtib edərək səlahiyyətli təşkilatları məlumatlandırır.

Yaradıldığının ilk 6 ayı ərzində Cəmiyyət üçün "Tullantıların idarə olunması planı" işlənərək Gəmiçiliyin 6 may 2014-cü il tarixli 70 №-li əmri ilə təsdiq və tətbiq olunmuşdur.

Maye və bərk tullantı çeşidlərinin Cəmiyyətin ərazilərindən kənarlaşdırılıb utilizə olunmaları məqsədilə səriştəli mütəxəssislərə, texnika və nəqliyyat resurslarına, habelə lazımi icazə sənədlərinə malik qurumlarla müqavilələr bağlanmışdır.

Gəmiçilik üçün həm də "Fövqəladə və Qəza Hallarında Ekoloji Təhlükəsizlik Proqramı" təsdiq edilərək 24 oktyabr 2014-cü il tarixdən qüvvəyə minmişdir.

Dəniz xidməti bazarında rəqabət imkanlarını yüksəltmək məqsədilə Cəmiyyət üçün könüllü surətdə İSO 9001 (Keyfiyyət menecmenti), İSO 14001 (Ekoloji menecment), İSO 50001 (Enerji səmərəliyi menecmenti) və OHSAS 18001 (Peşə təhlükəsizliyi və əməyin mühafizəsi menecmenti) kimi beynəlxalq idarəetmə standartlarının tələblərinə uyğun tərtib olunmuş "Təhlükəsizliyin Keyfiyyətli İdarəedilməsi Sistemi" (TKİS) 2015-ci ilin sonundan tətbiq olunaraq bu gün də işləyir.

Yuxarıda sadalanan aidiyyəti beynəlxalq konvensiyaların tələbləri əsasında müxtəlif növ maye və bərk tullantıları idarə etmək və qeydiyyatını aparmaq məqsədilə Cəmiyyət iri su tutumlu gəmilərini "Neft dağılmalarına qarşı gəmi fövqəladə mübarizə Planı", "Zibilin idarəolunması Planı", "Enerji səmərəliyi Planı", "Ballast suların idarəolunması planı", habelə "Neft əməliyyatları jurnalı. Hissə I", "Neft əməliyyatları jurnalı. Hissə II", "Zibil əməliyyatları jurnalı", "Çirkab su əməliyyatları jurnalı" və "Ballast su əməliyyatları jurnalı" sənədləri ilə təmin etmişdir.

Gəmilər və ərazilərə gündəlik keçirilən baxışlar zamanı tərtib edilən "Ekoloji Nəzarət Vərəqləri"ində, habelə monitorinqlər zamanı qeydə alınmış uyğunsuzluqları da özündə əks etdirən "KSƏTƏMM departamenti tərəfindən aparılmış monitorinqlərdə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması tədbirləri üzrə nəzarət vərəqi" vasitəsilə "AXDG" QSC-nin sədri və aidiyyəti səlahiyyətli şəxslər vaxtaşırı (əsasən ayda 1 dəfə) olaraq məlumatlandırılır, icra vəziyyəti KSƏTƏMM departamentinin nəzarətində saxlanılır.

Sonda bunu da diqqətinizə çatdırırıq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yaradıldıqdan sonra ötən dövrdə görülmüş qabaqlayıcı tədbirlər nəticəsində bu günədək ekoloji yönümlü nə orta, nə də yüksək səviyyəli fövqəladə və qəza hadisələri baş verməmişdir.

***Ələkbər ƏZİZLİ,***
*Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (KSƏTƏMM) departamentinin rəisi*

***Sabir KƏRİMZADƏ,***
*KSƏTƏMM departamentinin ətraf mühitin mühafizəsi üzrə aparıcı mühəndisi*

# “BALAKƏN” GƏMİ-BƏRƏSİ TƏMİRDƏN SONRA İSTİSMARA QAYTARILIB








***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin Nəqliyyat donanmasına məxsus “Balakən” gəmi-bərəsinin əsaslı təmiri yekunlaşıb. Gəmi sınaq üzüşündən də uğurla çıxıb.***

Gəmi-bərənin sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, müxtəlif təyinatlı nasoslar, baş və köməkçi mühərriklər əsaslı təmir olunub. Bəzi detallar yeniləri ilə əvəzlənib. Bərənin sualtı və suüstü hissəsi, vaqon göyərtəsi təmizlənərək rənglənib.

Gəminin avtomatika, naviqasiya avadanlıqları və elektrik hissələrində də bütün zəruri yoxlama və təmir işləri həyata keçirilib.

“Balakən” gəmi-bərəsi əsaslı təmirdən sonra yenidən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda istismar edilir. “Üzən qatar” Bakı-Türkmənbaşı-Bakı, Bakı-Aktau-Bakı, Bakı-Kurık-Bakı xətlərində müntəzəm çıxacağı səfərlərdə dəmir yolu vaqonları daşıyacaq.

Məlumat üçün bildirək ki, uzunluğu 154.50, eni isə 17.0 metr olan gəminin maksimal sürəti 13.9 uzeldir. Bərə göyərtəsinə 54 vaqon götürmək qabiliyyətindədir.

# 40 TONLUQ KRAN GƏMİSİ ƏSASLI TƏMİR OLUNUB






***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Xəzər Dəniz Neft Donanmasının balansında olan 40 tonluq “Atamoğlan Kərimov” kran gəmisi “Bibiheybət” Gəmi Təmiri Zavodunda əsaslı təmir edilib.***

Təmir müddətində gəminin sualtı və suüstü hissələri təmizlənərək yenidən rənglənib, onun gövdəsi, mexanizmləri, o cümlədən kran qurğuları yüksək səviyyədə təmir olunub, heyətin iş və məişət şəraiti müasir tələblərə uyğun təmin edilib.

Gəminin baş və köməkçi mühərrikləri də əsaslı surətdə təmir edilib. O cümlədən, nasoslar, seperatorlar, boru sistemləri və sair yüksək keyfiyyətlə sazlanıb.

Avadanlıqların işləkliyinə bir daha əmin olmaq üçün gəmi dəniz sınağından keçirilib. Bütün sınaqlar uğurla başa çatıb.

Məlumat üçün bildiririk ki, “Atamoğlan Kərimov” kran gəmisinin uzunluğu 63,8, eni 15 metrdir. Gəmi 1520 at gücündə mühərriklə təchiz olunub və surəti 11,24 uzeldir.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin kran gəmiləri dənizdə həyata keçirilən neft-qaz əməliyyatlarının təminatında əhəmiyyətli rol oynayırlar. Bu tip gəmilərə daim tələbat olduğundan, onların texniki vəziyyətinə hər zaman xüsusi diqqət yetirilir.

# “TÜRK AXINI”NIN DƏNİZ HİSSƏSİNİ TİKƏN ŞİRKƏTDƏN VERGİ ALINMAYACAQ



***Türkiyə hökuməti “Türk axını” təbii qaz boru kəmərinin (“TurkStream”) dəniz hissəsinin inşasını həyata keçirən şirkətdən vergi almayacaq.***

Bu barədə Türkiyə Maliyyə Nazirliyinin Gəlir İdarəsi məlumat yayıb.

Bildirilir ki, “Türk axını” təbii qaz boru kəmərinin layihəsi üzrə Qara dənizdəki iqtisadi bölgələrdə və qit sərhədləri daxilində fəaliyyət göstərən şirkət vergiyə cəlb olunmayacaq.

Qeyd edək ki, Rusiyadan Türkiyəyə ildə 15,75 kubmetr təbii qaz daşıyacaq boru kəmərinin 930 kilometr uzunluğundakı ilk xəttinin dəniz hissəsində boruların 530 kilometri inşa olunub. Beləliklə də “Türk axını”nın dəniz hissəsində boruların 60 faizi döşənib. Bu xətlə Türkiyəyə ilk qazın 2019-cu ildə çatdırılması nəzərdə tutulur. İkinci xəttin isə təxminən 224 kilometrində borular döşənib.

Rusiya qazını Türkiyəyə və Avropaya çatdıracaq “Türk axını”nın əsas rezervini Yeni Urenqoyda çıxarılan təbii qaz təşkil edəcək. “Türk axını”nın ilk xəttinin Türkiyənin təbii qaza olan hazırkı tələbatının təxminən 35 faizini ödəyə biləcək.

“Gazprom” şirkətinin məlumatına görə, boru kəmərinin ikinci xəttinin Türkiyə sularında inşası üçün bütün lazımi icazələr alınıb.

Boru kəmərinin dəniz hissəsinin tikintisini həyata keçirən “South Stream Transport B.V.” şirkətinin məlumatına görə, Türkiyədəki təbii qaz qəbulu terminal İstanbulun təxminən 100 kilometr qərbində yerləşən Kıyıköy bölgəsində tikilir. Buraya gələn qaz Türkiyənin “Botaş” şirkəti tərəfindən inşa ediləcək xətt ilə Lüleburgazdan beynəlxalq qaz şəbəkəsinə veriləcək.

“Türk axını” layihəsi üzrə Avropa bazarı üçün nəzərdə tutulan ikinci xəttin quru hissəsinin inşası isə “Botaş” və “Gazprom”un quracağı birgə şirkət tərəfindən inşa ediləcək. İkinci xətlə təbii qazın Türkiyə-Yunanıstan sərhədində, İpsala yaxınlarında Avropaya göndərilməsi planlaşdırılır. Lakin bu marşrut hələ ki müzakirə edilir, təbii qazı alacaq və daşıyacaq ölkələrlə danışıqlar aparılır.

Yeni Urenqoyda 12 trilyon kubmetrlik təbii qaz ehtiyatı “Gazprom”un yataqlarındakı ümumi ehtiyatların 70 faizini təşkil edir. “Gazprom” cari ildə “Türk axını” layihəsinə 3,2 milyard dollar vəsait sərf edəcək. Boru kəməri 1860 kilometr uzunluğunda olacaq. “Türk axını” boru kəmərinin dəniz hissəsinin inşasının 38 faizdən çoxu yekunlaşıb. Boru kəməri iki xətdən ibarət olacaq və hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq. “Türk axını” boru kəməri ilə Rusiya təbii qazının Türkiyəyə və Avropaya nəqli planlaşdırılır. Layihə Qara dəniz üzərindən Türkiyənin Avropa hissəsinədək və daha sonra Yunanıstan sərhədinədək qaz boru kəmərinin tikintisini nəzərdə tutur. Kəmərin dəniz hissəsinin uzunluğu 910 kilometrə yaxın, quru hissəsi isə Türkiyə ərazisi üzrə 180 kilometrdir. Boru kəmərinin birinci xətti Türkiyə bazarı, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulur. Layihənin ümumi dəyəri 11,4 milyard avro həcmində qiymətləndirilir.



## GÖYƏRTƏSİNDƏ 50 NƏFƏR OLAN BƏRƏ YOXA ÇIXIB

***Kiribati Respublikasının balıqçıları, həmçinin Fici və Yeni Zelandiya xilasediciləri azı iki həftə bundan əvvəl Sakit okean sularında yoxa çıxan bərəni axtarırlar.***

TASS informasiya agentliyi xəbər verir ki, kiçik bərənin göyərtəsində 50-yə yaxın insan olub. Yanvarın 18-də Nonouti adasından çıxan katamaran iki gündən sonra 280 kilometr məsafədə yerləşən Tarava adasına çatmalı idi. Bərənin itməsi yalnız bir neçə gündən sonra məlum olub.

Hazırda Ficidən gələn bir neçə gəmi və Zelandiyanın göndərdiyi “P-3K2 Orion” patrul təyyarəsi Kiribati akvatoriyasında axtarışlara qoşulub.

Sakit okeanın cənub-qərbində yerləşən Kiribati Respublikasının tərkibinə 20-si kimsəsiz olan 33 kiçik atol (rif) daxildir. Onun sahilyanı iqtisadi zonasının ümumi sahəsi 3,5 milyon kvadratkilometr, əhalisi isə 100 min nəfərə yaxındır. Əhalinin yarıdan çoxu ən iri atol olan Tarava adasında yaşayır.



## “BERQ” GƏMİSİNİN ZƏDƏLƏNMƏSİ FAKTI ÜZRƏ YOXLAMA TƏŞKİL EDİLİB

***Kerç Nəqliyyat Prokurorluğu Qara dəniz akvatoriyasında gövdəsi deşilmiş quru yük daşıyan “Berq” gəmisinin zədələnməsi faktı üzrə yoxlama təşkil edib. Bu barədə Rusiyanın Şimali Qafqaz və Cənub federal dairələrinin və Saratov vilayətinin ərazilərində fəaliyyət göstərən Cənub Nəqliyyat Prokurorluğu məlumat verib.***

Türkiyənin Bandırma şəhərində gəmiçilik şirkətinə məxsus olan “Berq” gəmisinin gövdəsi fevralın 1-nə keçən gecə Krım yaxınlığında zədələnib. Moldova bayrağı altında üzən və kəpək daşıyan gəmi Azov dənizindən Türkiyəyə istiqamət götürüb. Ukrayna və Azərbaycan vətəndaşlarından ibarət 12 nəfərlik heyət Feodosiyaya təxliyə edilib. Zərərçəkənlər yoxdur.

Prokurorluq fakt üzrə yoxlama aparır. Hazırda hadisənin təfərrüatı araşdırılır. Bildirilir ki, gəmi Feodosiya körfəzindədir və onun batması təhlükəsi yoxdur.

*Fəridə Abdullayeva*



## QAYIQDAKI MİQRANTLARDAN YALNIZ İKİSİ SAĞ QALIB

***Aralıq dənizinin Liviya sahillərində qeyri-leqal miqrantları daşıyan qayığın batması nəticəsində azı 90 nəfər boğularaq ölüb.***

TASS informasiya agentliyi xəbər verir ki, bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat yayıb. Batan qayıqda təxminən yüz nəfər mühacir olub. Sahildə ikisi liviyalı, səkkizi pakistanlı olmaqla, 10 nəfərin cəsədi aşkarlanıb. Qayıqdakı miqrantlardan yalnız ikisi sağ qalıb. Onları dənizdə balıqçılar xilas ediblər.

Avropa ölkələrinə can atan miqrantların əsas marşrutlarından biri Aralıq dənizindən keçir. 2017-ci ildə bu marşrut vasitəsi ilə Avropaya 171 min nəfərdən çox mühacir və qaçqın gəlib. Təhlükəli köç zamanı 3 mindən çox insan həyatını itirib.

## QAYIĞIN HƏDDƏN ARTIQ YÜKLƏNMƏSİ QƏZAYA SƏBƏB OLUB



***İtaliyanın xilasetmə xidmətlərinin verdiyi məlumata əsasən, Aralıq dənizində miqrantları daşıyan qayığın batması nəticəsində 2 nəfər həyatın itirib. 80-dən çox miqrant isə xilas edilib.***

İtaliyanın “thelocal.it” saytı xəbər verir ki, hadisənin baş verməsinə səbəb qayığın həddən artıq yüklənməsi olub.

İtaliya xilasetmə xidmətlərinin verdiyi məlumata görə, 5 əməliyyat zamanı ümumilikdə 800-dək miqrant xilas edilib.

*Asiman Əsədov*

## QAYIĞIN AŞMASI NƏTİCƏSİNDƏ AZI 30 MİQRANT HƏYATINI İTİRİB



***Yəmən sahillərində Ədən şəhəri yaxınlığında 152 mühaciri daşıyan qayığın aşması nəticəsində azı 30 nəfər həlak olub. Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı (IOM) məlumat yayılıb.***

İçərisində Somali və Efiopiya vətəndaşlarının olduğu qayıq yanvarın 23-də Ədən körfəzindən çıxaraq Cibuti istiqamətində üzürdü.

Təşkilata, həmçinin qayığın sərnişinlərinə atəş açıldığı barədə məlumatların daxil olduğu da bildirilir.

## RUSİYA TƏBİİ QAZINI DAŞIYAN TANKER BOSTON LİMANINA YAN ALIB




***"Russia Today" xəbər verir ki, ABŞ Rusiyaya ticari embarqo tətbiq edərkən Rusiyaya məxsus mayeləşdirilmiş təbii qazı (liquefied natural gas-LNG) alıb. Rusiya ilə enerji əməkdaşlığı quran ölkələri embarqo ilə təhdid edən ABŞ Rusiya təbii qazından istifadə edir.***

Belə ki, Rusiya təbii qazını daşıyan tanker Boston limanına yan alıb. Fransanın "Engie" enerji şirkətinə məxsus tankerin LNG daşıdığı liman rəsmiləri tərəfindən də təsdiqlənib.

Liman rəsmiləri tankerin Rusiyanın Yamal bölgəsindən yüklənən LNG-ni Böyük Britaniyanın Grain dəniz limanına apardığı, daha sonra isə Bostonun Everett bölgəsinə gətirdiyini bildirib.

Qarşıdakı günlərdə Fransanın Dunkirk limanından ABŞ-ın New England bölgəsinə Rusiyaya məxsus daha bir LNG yükünün tədarük ediləcəyi qeyd olunub.

## MÜHARİBƏ VETERANI GƏMİ, TƏYYARƏ VƏ RAKET MAKETLƏRİ HAZIRLAYIR





***Mingəçevir sakini müxtəlif təyinatlı təyyarələr, fərqli ölçüdə raketlər, hərbi və yelkənli gəmilərin maketlərini hazırlayır. Qarabağ müharibəsi veteranı Füzuli Əliyevə məxsus emalatxana ilk baxışdan kiçik zavodu xatırladır.***

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhər uşaq gənclər inkişaf mərkəzində dərnək rəhbəri olan Füzuli Əliyev 36 ildən çoxdur bacardıqlarını tələbələrinə də öyrətməyə çalışır. Dediyinə görə, onun əsas xammalı kağız və plastik materiallardan ibarətdir. Hazırda iki yelkənli və bir hərbi gəmi üzərində çalışan sənətkar əl işlərinə xeyli zaman sərf etdiyini deyir. Onun düzəltdiyi təyyarələr havaya qalxaraq 16 metr məsafədə dairəvi hərəkət edə bilir. Həmçinin, burada müasir qırıcı təyyarələrin da maketi hazırlanır.

Onu da qeyd edək ki, əl işləri sırasında ən çox diqqət çəkən isə raketlərdir. 200 metr hündürlüyə qalxan bu qurğular paraşütü açıldıqdan sonra rahat şəkildə yerə qayıdır. Mingəçevirli sənətkarın hazırladığı gəmi, təyyarə, raket və digər qurğular müxtəlif sərgilərdə nümayiş olunub. Maraqlı məqam odur ki, usta əl işlərinə qiymət qoya bilmədiyindən onları satmır.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SAHİLLƏRİ QIRMIZI RƏNGƏ BOYANIB



***Yerli mətbuatda yayılan xəbərlərə görə, Birləşmiş Ərəb Əmirliklərinin sahilboyu ərazisindəki sularda qırmızı ləkələr meydana gəlib.***

Sahilboyu xətt üzrə ayrı-ayrı ərazilərdə qırmızı ləkələrin yaranma səbəbi, İqlim Dəyişikliyi və Ətraf Mühit Nazirliyinin də təsdiq etdiyi kimi, ərazinin yosunlarla örtülməsidir. Nazirlik balıqçılara və çimərliyə gedənlərə suda zəhərli maddələrin olacağı barədə xəbərdarlıq edib və sahildəki müəyyən rayonlarda balıq və molyusklar tutmamağı tövsiyə edib.

Nazirlik gələcəkdə meydana çıxacaq problemlərin qarşısını almaq üçün peyk monitorinqi vasitəsilə Dənizin Qorunması üzrə Regional Təşkilat ilə əməkdaşlıq şəraitində vəziyyətə nəzarət edir. Rəsmi bəyanatda bildirilir ki, peyk görüntüsü bioloji fəallığın Hind okeanı və qonşu ölkələrə yayıldığını göstərir.

***Asya Hacızadə***

## TÜRKİYƏ ƏHALİSİNİN SAYI 80 MİLYON NƏFƏRİ ÖTÜB

***2017-ci ildə Türkiyə əhalisinin sayı əvvəlki illə müqayisədə 995 min 654 min nəfər artaraq 80 milyon 810 min 525 nəfərə çatıb.***



Anadolu informasiya agentliyi xəbər verir ki, ölkənin Statistika İnstitutunun məlumatına görə, əhalinin 50,2 faizini (40 milyon 535 min 135 nəfər) kişilər, 49,8 faizini (40 milyon 275 min 390 nəfər) isə qadınlar təşkil edir. Ölkədə şəhər əhalisinin sayı 92,5 faizə qədər artıb.

Əhalinin 18,6 faizi (15 milyon 29 min 231 nəfər) İstanbulda yaşayır. Sonrakı yerlərdə 5 milyon 445 min 26 nəfərlə paytaxt Ankara, 4 milyon 279 min 677 nəfərlə İzmir, 2 milyon 936 min 803 nəfərlə Bursa və 2 milyon 364 min 396 nəfərlə Antalya gəlir.

2016-cı ildə Türkiyə əhalisinin artım tempi 13,5 faiz olub, ötən il isə bu göstərici 12,4 faizə qədər aşağı düşüb.



## "VOSTOK" GƏMİSİNİN HEYƏT ÜZVLƏRİNİN QOHUMLARINA TƏZMİNAT ÖDƏNİLƏCƏK

***Yapon dənizində "Vostok" gəmisinin axtarışları davam edir. Rusiya FHN-in iki "Be-200" təyyarəsi və üç refrijerator gəmisi axtarış işlərində iştirak edir.***

Gəminin sahibi, "DV-flot" şirkətinin baş direktoru Stanislav Malçevski jurnalistlərə heyət üzvlərinin qohumlarına 1,5 milyon rubl təzminat ödəniləcəyini bildirib. Hələlik gəmi heyəti itkin düşmüş hesab olunur. Yalnız məhkəmə qərarından sonra heyət üzvlərinin həlak olması elan ediləcək.

Xatırladaq ki, yanvarın 25-də Yapon dənizində göyərtəsində 21 heyət üzvünün olduğu "Vostok" gəmisi xəbərdarlıq siqnalı verdikdən sonra yoxa çıxıb. Heyət üzvləri arasında əslən azərbaycanlı olan Rusiya vətəndaşları Mübariz Hüseynov və Ruslan Əlizadə də var.

***Fəridə Abdullayeva***

## YENİ İNZİBATİ PAYTAXT QAHİRƏDƏN 45 KİLOMETR ŞƏRQDƏ SƏHRADA SALINACAQ



***Misir prezidentinin administrasiyası və hökuməti ölkənin tikilməkdə olan inzibati paytaxtına köçürüləcək.***

Misirin MENA informasiya agentliyinin yaydığı məlumata əsasən, bunu layihənin rəhbəri Əhməd Zəki Abdin jurnalistlərə bildirib. Onun sözlərinə görə, hökumət rayonunun salınması planlaşdırılan ərazidə tikinti işləri artıq başlayıb. Hökumət müəssisələri yeni administativ paytaxta 18 ay müddətində köçürüləcək. Bu, ilk növbədə prezident dəftərxanasına, Nazirlər Kabinetinə, parlamentə aiddir.

Hökumət məhəlləsinin tikintisinə 35 milyard Misir funtu (iki milyard ABŞ dollarına yaxın) vəsait qoyulması planlaşdırılır. Eyni zamanda, yeni paytaxta gələn əməkdaşlar üçün yaşayış məhəllələri salınacaq və onlar burada güzəştli şərtlərlə mənzil ala biləcəklər.

Yeni inzibati paytaxt Qahirədən 45 kilometr şərqdə səhrada salınacaq. Bu, əhalisi 20 milyon nəfər olan meqapolisin yükünün azaldılması ilə bağlıdır. Nazirlik və idarələrin, parlamentin, prezident administrasiyasının, ali təhsil müəssisələrinin, diplomatik nümayəndəliklərin yerləşəcəyi yeni paytaxtın ərazisi 700 kvadratkilometr təşkil edəcək. Burada yeddi milyon insanın məskunlaşacağı gözlənilir. Layihənin birinci növbəsinin dəyəri 45 milyard dollardır və hökumətin ilkin planına əsasən, bu mərhələ 2020-ci ilədək reallaşmalıdır.

Bir müddət əvvəl Çinin China State Construction Engineering Corporation dövlət mühəndis-tikinti korporasiyası ölkənin yeni inzibati paytaxtında infrastruktur obyektlərinin tikintisi üçün Misir hökuməti ilə 2,7 milyard dollarlıq saziş imzalayıb.

## YAPONİYA MÜBAHİSƏLİ ADALARIN VAHİD KOREYA XƏRİTƏSİNƏ SALINMASINA ETİRAZINI BİLDİRİB



***Yaponiya hökuməti mübahisəli Takeşima adalarının iki Koreyanın vahid bayrağında əks olunması ilə əlaqədar Koreya Respublikasına etirazını bildirib. Həmin adalara Yaponiya da iddia edir.***

Bu barədə Yaponiya Nazirlər Kabinetinin baş katibi Yoşihide Suqa fevralın 5-də keçirilən mətbuat konfransında bəyan edib.

"Bu, bizim hökumətin mövqeyinə ziddir və tamamilə qəbuledilməzdir. Bununla əlaqədar diplomatik kanallar vasitəsilə Cənubi Koreyaya etiraz göndərilib", - deyə baş katib qeyd edib.

Vahid bayraq və ya birlik bayrağı adlandırılan bayraq fevralın 4-də iki Koreyanın hokkey üzrə qadınlardan ibarət birgə yığma komandasının İsveç komandası ilə yoldaşlıq görüşü zamanı qaldırılıb. Beynəlxalq yarışlarda vahid Koreya nümayəndələrinin birgə iştirakı üçün həmin bayraq 1991-ci ildə təsis edilib. Həmin vaxt iki ölkənin birgə komandası Yaponiyada keçirilən stolüstü tennis üzrə Dünya çempionatında iştirak edib.

Takeşima arxipelaqı kiçik adalar qrupundan ibarətdir və koreyalıların Şərq dənizi adlandırdığı Yapon dənizinin qərbində yerləşir. İnsanların yaşamadığı həmin adalar 1945-ci ildə Koreya Yaponiya işğalından azad edildikdən sonra beynəlxalq mübahisə predmetinə çevrilib. Hazırda bu adalarda Koreya Respublikasının silahlı qüvvələrinin kiçik hərbi qarnizonu yerləşir. Rəsmi Tokio isə bildirir ki, 1905-ci ildə Yaponiya imperiyasının tərkibinə daxil edilmiş həmin adaları Koreya Respublikası işğal edib.

***Vüqar Ağayev***

## KÖPƏKBALIĞI OVU MÜVƏQQƏTİ QADAĞAN EDİLİB



***Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişiklikləri və Ətraf Mühit Nazirliyi köpəkbalıqlarının çoxalması dövrü ilə əlaqədar 2018-ci il fevralın 1-dən iyunun 30-dək onların ovlanmasını qadağan edib.***

BƏƏ nazirliyinin Balıq Təsərrüfatının Davamlı İnkişafı Departamentinin direktoru Salah Abdulla əl-Rəisi bildirib ki, qadağa riflərin "təmizlənməsi", xəstə və zəif balıqların ovlanması hesabına sağlam yaşayış mühitinin yaradılmasında həlledici rol oynayan nadir köpəkbalığı növləri üçün risklərin azaldılmasına yönəldilib. Bu qadağa mərcan riflərinin və dəniz populyasiyalarının qorunub saxlanılmasına töhfə verir.

Onun sözlərinə görə, BƏƏ sularında nəsli kəsilmək təhlükəsi qarşısında duran, yaxud nəsli kəsilmək üzrə olan köpəkbalıqları kimi təsnif edilən təqribən 30 növ yaşayır. S. əl-Rəisi deyib: "Qanunsuz balıqçılıq üsulları, qeyri-etik və nəzarət olunmayan balıqçılıq üsullarının qlobal miqyasda yayılması, habelə köpəkbalığı üzgəcləri alverinin artması nəticəsində bəzi köpəkbalığı növlərinin nəsli kəsilmək üzrədir. Bunun qarşısı ümumi səylərlə alınmalıdır".

***Asya Hacızadə***

## YARIZARAFAT, YARIGERÇƏK

**Yaltağın yaltaqdan xoşu gəlməz, yaltaqlığa təzə başlamaq istəyənin heç birindən.**

**Yaltaqlıq peşə deyilsə, yaltaqlara maaş niyə verilir?**

**Hər bir idarə, müəssisə və təşkilatda nə qədər yaltaq varsa, o qədər də "ölü can" var.**

**Sözünün çəkisi olmayanın özünün çəkisinin nə əhəmiyyəti?**

**Boş əllərinizə fikir verməyin. İş görmək üçün əlinizdə çox şey var.**

**Yaza bilməyənlər yazmaqdan dəm vuranda, yaza bilənlərin mahnı oxumaqdan başqa çarəsi qalmır:"Aman e..."**

**Bütün günahlarını mənim boynuma tökürlər, sonra deyirlər ki, kara az gəlirəm.**

**Baqalarının haqqını mənimsəyənlərin boğazında heç nə qalmasa da, boğazları bir gün əldə qalacaq.**

**Mərdlik kişiyə, gözəllik qadına yaraşır. Nədənsə indiki kişilər daha çox gözəl görünməyə çalışırlar.**

**Pisliyi içinizdən ata bilsəniz, bütün yaxşılıqlar sizə qucaq açar.**

**Heç nə ədalətsizlik qədər adamın əlini işdən soyutmur.**

**O yerdə ki, hər kəs yalnız öz xeyrini düşünür, orada xeyirli heç nə olmaz.**

**Başqa planetə köçmək mənə neçəyə başa gələcək? Ümid edirəm ki, hər halda, orada bu qədər saman altdan su yeridən olmaz.**

**Çox vaxt günah özümüzdə olur. Başları heç nədən çıxmayanların başlarını başları çıxmayan yerdən çıxaran kimi başlayırlar adama ağıl dərsi verməyə.**

**Çiynimdəki yükün ağırlığını sən hardan biləsən? Sən özün başqalarının çiyninə bir yüksən.**

**Çaşıb CV-lərdə yaxşı adam olduğunuzu qeyd etməyin. Yaxşı adamlar kimə lazımdır?**

**Bəxtimizə şans vermirik. Sonra da deyirik ki, bəxtsizik.**

**Ədalətli olmayan adama səlahiyyət vermək olmaz.**

**Mənim bu dünyada az gördüyümü demək olmaz. Elə gördüyüm ədalətsiz adamların nə sayı var, nə də hesabı.**

**Hər ömrün öz fəsilləri var.**

**Ən böyük əlil sağlam fikri olmayandır.**

**Tutarlı fakt istədim. Tutarlı yalan uydurmağa çalışdı.**

**İki səbəbə görə biz dost ola bilmərik. Birincisi ona görə ki, sən adam deyilsən. İkincisi... birincisi olan yerdə, ikincisinə nə lüzum?**

**Bütün həyatınızı pisliyə həsr etməyin. Bir dəfə də olsa, yaxşılıq etməyi sınaqdan keçirin. Bəlkə xoşunuza gəldi.**

**Həyat, dənizdə üzmək kimi bir şeydir. Fırtınasına, qasırğasına hər an hazır olmalısan.**

**Hətta tülkülük edənlər də tülküləri sevmirlər.**

**Sənin xoşbəxtliyinə səndən çox kim mane ola bilər?**

**Ən böyük yaltaqlar adətən səndə olmayan məziyyətlərə görə səni tərifləyirlər.**

**Sözüm keçməyən yerdən çalışıram özüm də keçməyim.**

**Pulun insanı insanlıqdan çıxarmaq gücü var.**

**Gülünc vəziyyətdən çıxartdıqlarımın dili uzandığı üçün sonra daha çox mənə dil çıxardırlar?**

**Nə qədər ki, pul, sərvət, şöhrət sizindir, dünya mənimdir.**

**Pullu adamlar mənə ancaq və ancaq cibimin deşiyindən baxırlar.**

**Düşmənləriniz o qədər azdır ki, dostlarınızı da düşmənə çevirirsiniz?**

**Məndən başqa, çox adam mənim yerimdə olmaq istəyir.**

**İstənilən vaxt fikirləşə bilərəm deyə, özüm haqqımda heç vaxt fikirləşmədim.**

**Əvvəlcə biz günaha batırıq, sonra günahlar bizi batırır.**

**Yeyiləsi görünən hər şeyi yemək mümkün olmadığı kimi, deyiləsi görünən hər şeyi də demək olmaz.**

**Hər sahənin öz şəhidləri var. Olmasa, bir sahə belə, inkişaf etməz.**

**Ümidini itirməyən itirdiyi çox şeyi tapa bilər.**

**İşimiz yaxşı gedəndə Allahın bizə yardım etdiyini hiss etmirik.**

**İnsanlar görmək istəmədikləri işi görməmək üçün nə qədər desən, bəhanə gətirə bilirlər.**

**İnsan qalmaq üçün neçə-neçə istəyimdən vaz keçdim.**

**Hər tərəf işıqlı olanda, insanın içindəki işığı görmək çətindir.**

**Bəziləri ağıllarının yarısından belə istifadə etmirlər?**

***Rasif TAHİROV***

# AZƏRBAYCAN QRAN PRİSİNİN TURNİR CƏDVƏLİ AÇIQLANIB

***"Formula One Group" (FOM) 2018-ci il mövsümündə Formula 1 yarışlarının turnir cədvəlini təsdiq edib.***

"F1News.ru" xəbər verir ki, ötən illərin cədvəli ilə müqayisədə iki əhəmiyyətli dəyişiklik edilib. Əvvələn, bütün yürüşlər saatın tamamından 10 dəqiqə sonra start götürəcək. "Liberty Media"da hesab edirlər ki, bu 10 dəqiqə yarışa marağı, o cümlədən yayımın formatında dəyişikliklər hesabına artırmaqda teleşirkətlərə kömək edəcək.



İkincisi, Avropa mərhələ yarışlarının vaxtı həmişəki vaxtdan 1 saat sonraya keçirilib. Braziliya yürüşü də adi vaxtından bir saat sonra start götürəcək.

Digər cüzi dəyişikliklər imkan verəcək ki, yürüşlər başqa iri idman hadisələri, o cümlədən futbol üzrə dünya çempionatı ilə bir vaxta düşməsin və Qran Pri promoutorlarının istəkləri nəzərə alınsın.

Qeyd edək ki, Azərbaycan Qran Prisi aprelin 27-29-da keçiriləcək. Birinci sessiya yerli vaxtla 13:00-14:30-da, ikinci sessiya 17:00-18:30-da, üçüncü sessiya 14:00-15:00-da, təsnifat 17:00-18:00-da, yürüş 16:10-da nəzərdə tutulub.

# ŞƏHRİYAR MƏMMƏDYAROV FİDE-NİN REYTİNQİNDƏ İKİNCİ PİLLƏYƏ YÜKSƏLİB

***Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov Beynəlxalq Şahmat Federasiyasının (FİDE) reytinq cədvəlində ikinci yeri tutur.***

FİDE 2018-ci il fevralın 1-nə olan reytinq siyahısını açıqlayıb. Şəhriyar Məmmədyarov reytinqdə 2018-ci il yanvarın 1-nə olan vəziyyətə görə, öz mövqeyini yaxşılaşdıraraq fevralda üçüncü yerdən ikinci pilləyə yüksəlib. Şahmatçımız FİDE-nin reytinq siyahısında öz əmsalını 10 xal artıraraq 2814 xala çatdırıb.



FİDE-nin məlumatına görə, Norveçdən olan dünya çempionu Maqnus Karlsen 2843 xalla dünyanın ən güclü şahmatçılarının siyahısında liderliyini davam etdirir. Üçüncü yeri keçmiş dünya çempionu, rusiyalı Vladimir Kramnik tutur (2800 xal).

Digər şahmatçımız Teymur Rəcəbov (2748) yanvar ayı ilə müqayisədə bir pillə yüksələrək 18-ci yerdə qərarlaşıb. Öz əmsallarını və mövqelərini qoruyub saxlayan digər Azərbaycan şahmatçıları Rauf Məmmədov (2709) 40-cı, Arkadi Naydiç (2705) 41-ci yeri tuturlar.




# QIŞ OLİMPİYA OYUNLARI ÜÇÜN 21 ÖLKƏNİN RƏHBƏR ŞƏXSLƏRİ CƏNUBİ KOREYAYA SƏFƏR EDƏCƏK

***Pxençan şəhərində keçiriləcək Qış Olimpiya Oyunlarını izləmək üçün 21 ölkənin və bir neçə beynəlxalq təşkilatın rəhbər şəxsləri Cənubi Koreyaya səfər edəcək. Onlardan 16 nəfəri isə açılış mərasiminə qatılacaq.***

"Pxençan-2018"in təşkilat komitəsi xəbər verir ki, rəhbər şəxslər arasında BMT-nin baş katibi Antonio Quterreş, Almaniya prezidenti Frank-Valter Ştaynmayer, Yaponiyanın Baş naziri Şinzo Abe, ABŞ-ın vitse-prezidenti Mayk Pens, İsveç kralı Karl Qustav, İsveçrə prezidenti Alain Berset, habelə Sloveniya, Polşa, Slovakiya, Litva, Estoniya və Latviyanın dövlət başçıları, Norveç, Danimarka, Lixtenşteyn və Finlandiyanın baş nazirləri, Monako knyazı, Danimarkanın şahzadə vəliəhdi, Kanadanın general-qubernatoru və digərləri var.

Qeyd edək ki, "Pxençan-2018" Qış Olimpiya Oyunları fevralın 9-25-də keçiriləcək. Bu, Cənubi Koreyanın ev sahibliyi etdiyi ilk Qış Olimpiya Oyunları, ümumilikdə isə ikinci Olimpiya Oyunlarıdır. Paytaxt Seulda 1988-ci ildə Yay Olimpiya Oyunları təşkil edilmişdi.

# BAKININ EV SAHİBLİYİ EDƏCƏYİ İDMAN GİMNASTİKASI ÜZRƏ DÜNYA KUBOKUNDA 163 İDMANÇI YARIŞACAQ




***Azərbaycan Gimnastika Federasiyası beynəlxalq yarışlar mövsümünə start verir.***

Martın 15-18-də Milli Gimnastika Arenası idman gimnastikası üzrə dünya kubokuna ev sahibliyi edəcək. Bakıda üçüncü dəfə təşkil olunacaq bu yarışa 27 ölkədən 163 idmançının qatılacağı gözlənilir.

Kişi və qadın idman gimnastları ilk iki gündə təsnifat, son iki gündə isə ayrı-ayrı alətlər üzrə final mərhələlərində güclərini sınayacaqlar.

Federasiyanın beynəlxalq idman tədbirlərini yüksək səviyyədə təşkil etməsi və ildən-ilə artan təcrübəsi bu dəfə də yarışlarda əksini tapacaq. Turnir boyunca tamaşaçılar nəinki meydançada çıxış edən idmançıları, həm də təşkilatçılar tərəfindən təqdim olunacaq maraqlı fləşmobları da izləyəcəklər. Habelə müxtəlif müsabiqələrdə yaxından iştirak edərək federasiyadan xatirə hədiyyələri qazanmaq şansı əldə edəcəklər.

İlin gimnastika üzrə ilk turnirinə biletləri Milli Gimnastika Arenasının kassasından əldə etmək olar. Təsnifat mərhələlərinin keçiriləcəyi günlər üçün biletlərin qiyməti 10 manat, final günləri üçün isə 15 manatdır.

# "REUTERS" AGENTLİYİ "PXENÇXAN-2018"İN AÇILIŞ MƏRASİMİ MƏŞQLƏRİNDƏN FOTOŞƏKİLLƏR YAYIB

***"Reuters" agentliyi "Pxençxan-2018" Qış Olimpiya Oyunlarının açılış mərasimi məşqlərindən, habelə Olimpiya məşəlinin test alovlandırılmasından fotoşəkillər yayıb. Halbuki məşqlər ənənəvi olaraq son anadək tam məxfi saxlanılmalıdır.***

Bu barədə Koreyanın "Yonhap" agentliyi məlumat yayıb.

"Reuters" agentliyi ötən bazar günü Pxençxanda keçirilmiş məşqlərdən çox aydın çəkilmiş doqquz fotoşəkli yayıb. Fotoşəkillərdə beş barmağın rəmzi olan beş dayaq üzərində piyalə görünür. Alov piyaləyə yönəlmiş nəhəng mil boyunca qaldırılır.

Beynəlxalq Olimpiya Komitəsi bu məsələyə agentliyin reportyor və fotoqraflarını mərasimə buraxmaqdan məhrum etməklə cavab verib. Komitə, həmçinin fotoqraflardan birinin akkreditasiyasını ləğv edib və media şirkətlərindən "Reuters"in fotoşəkillərini öz saytlarından yığışdırmağı xahiş edib.




"Reuters" fotoşəkilləri səhvən yerləşdirdiyini bildirib, onları saytdan götürüb və təşkilatçılara "narahatlıq yaratdığı" üçün onlardan üzr istəyib. "Pxençxan-2018" Olimpiya Oyunlarının təşkilat komitəsində jurnalistlər və digər KİV nümayəndələrinə qaydaları pozacaqları halda sərt cəzalandırılacaqları barədə xəbərdarlıq olunub.

Xatırladaq ki, Pxençxanda Qış Olimpiya Oyunları fevralın 9-da başlayacaq.

# OTURAQ HƏYAT TƏRZİ ERKƏN YAŞLARDA İNFARKTIN YARANMASINA SƏBƏB OLA BİLƏR

***Hazırda dünyada olduğu kimi, Azərbaycanda da ürək patologiyaları ümumi xəstəliklər içində həm rast gəlmə tezliyinə, həm də yarada biləcəyi fəsadlara görə birinci yerdədir. Ürək-damar xəstəlikləri geniş spektri əhatə edir. Bura ürəyin tac damarlarının və ürək qapaqlarının xəstəlikləri, arterial hipertenziya nəticəsində əmələ gələn ürək problemləri, ürək çatışmazlığı və bir sıra digər səbəblərdən əmələ gələn damar xəstəlikləri daxildir. Ani ölümlərin də başlıca səbəbi əsasən damar xəstəlikləri göstərilir. Bu, əvvəlcədən ürək xəstəliyi olanlarda görüldüyü kimi, şikayəti olmayanlarda da baş verə bilər.***

Bu sözləri AZƏRTAC-a məxsusi müsahibəsində Mərkəzi Klinikanın kardioloqu Oqtay Musayev bildirib.

**- Dünyada ən geniş yayılmış ürək xəstəlikləri hansılardır?**

- Hazırda mövcud ürək-damar xəstəlikləri arasında ən aktual olanı ürəyin işemik xəstəliyidir. Bu, ürəyin tac damarlarının tutulması, daralması nəticəsində yaranan xəstəliklər qrupudur ki, ən sadəsinə qidalanma çatışmazlıqları dediyimiz stenokardiyalar, ən ağırına isə miokard infarktı daxildir.

**- Ürəyin işemik xəstəliyinin əmələ gəlmə səbəbləri hansılardır?**

- Bu xəstəliyin risk faktorları (səbəblər) "dəyişdiriləbilinən" və "dəyişdirəbilinməyən" olaraq iki qrupa bölünür. "Dəyişdiriləbilinməyən"lər artıq doğuşdan insanın alın yazısı kimi onun həyatına daxil olur. Bu halda yaş artdıqca xəstəlik daha da inkişaf edərək kəskinləşir. Kişi cinsinə mənsub olmaq da xəstəliyin əsas risk faktorlarındandır. Belə ki, qadınlara nisbətən kişilər bu xəstəliklərdən daha çox əziyyət çəkir. Xəstəliyin yaranma səbəbləri arasında genetik meyillilik də böyük rol oynayır. Təəssüflə demək istərdim ki, bu hallarda heç bir qoruyucu-profilaktik tədbirlərlə xəstəliyin qarşısını almaq mümkün olmur.

Digərləri isə "dəyişdiriləbilinən" risk faktorlarıdır. Bunlara şəkərli diabet, arterial hipertoniya, siqaretdən istifadə, piylənmə və xolesterin yüksəkliyi daxildir. Bütün bu faktorları rahatlıqla kontrol altına alaraq ürək damarlarında daralma və tutulma əmələ gəlməsinin qarşısını almaq



mümkündür. Bu gün dünyada risk faktorlarına qarşı geniş mübarizə aparılır və onların kontrol altına alınması ilə işemik xəstəliklərin yayılmasının qarşısı alınır.

**- Yaş faktorunun xəstəliyin yaranma riskləri arasında olduğunu qeyd etdiniz. Ümumiyyətlə neçə yaşdan sonra olan insanlar bu risk qrupuna aid edilir?**

- 40 yaşdan yuxarı kişilər və 50 yaşdan yuxarı, klimaks dövrünə girmiş qadınlar bu risk qrupuna daxildir. Lakin burada yalnız yaş rol oynamır. Hər 40 yaşını keçmiş insanı bura aid etmək düzgün deyil. Siqaret çəkən, arterial hipertenziyası (qan təzyiqinin yüksəkliyi), şəkərli diabeti, ailəsində ürək xəstəlikləri olan və qanda xolesterini yüksək insanlar da bu, nisbətən daha yüksəkdir. Belə ki, bütün bu sadalananlar ürəyin tac damarlarının daralmasına səbəb olan amillərdir. Onu da qeyd edim ki, son zamanlar xəstəliyin cavanlaşması qeyd edilir. Belə ki, 20-30 yaşlı insanlarda artıq bu xəstəlik daha çox görülməyə başlayıb. Bu, "gənc infarktlar"ın yaranmasında təbii ki, genetik faktorlar əsas yer tutur. Lakin hazırda gənclərin erkən yaşda siqaret çəkmələri, yağlı və xolesterinli qidalarla qidalanmaları, daha çox oturaq həyat tərzi keçirmələri irsi meyillilik və genetik faktorlarla birlikdə erkən yaşlarda infarktların yaranmasına səbəb olmaqdadır .

Kişilərin qadınlara nisbətən ürək damar sistemi xəstəlikləri riskinin daha yüksək olduğunu qeyd etdik. Lakin qadınların 60 yaş və ya klimaks dövrü çatmaları ilə bu nisbət bərabərləşir.

**- Xəstəliyin kişilərdə daha çox olmasının əsas səbəbi nədir?**

- Qadınlardan fərqli olaraq kişilərdə orqanizmdə qoruyucu rol oynayan estrogen hormonu ifraz olunmur və bu da başlıca səbəbdir. Bu hormon əsasən ateroskleroza qarşı qoruyucu mövqe tutur. Lakin qeyd etdiyim kimi qadınlar klimaks dövrünə girdikdən sonra onların da orqanizmində adı keçən hormonun ifrazının dayanması bu risk faizini bərabərləşdirir.

**- Xəstəliyin anadangəlmə hansısa bir qüsurun fəsadı olma ehtimalı varmı?**

- Anadangəlmə qüsurlar adətən uşaq yaşlarında özünü büruzə verir və bunların ürək-damar xəstəlikləri ilə bir əlaqəsi olmur. Daha çox qapaqlarda və yaxud ürək boşluqları, ürək damarları arasında meydana çıxır. Bunların arasında tək damar xəstəliyi ürəyin tac damarları arasında anadangəlmə anomaliyalar-tərs çıxışların olmasıdır ki, bu da ürəyin tac damarlarının anomaliyaları adlanan-damarın normal yerdən deyil anotomik tərs istiqamətdən çıxmasıdır. Bu, bəzi hallarda miokard infarktına səbəb ola bilər. Lakin insanlar arasında, ümumilikdə götürdükdə bu hallar çox nadir rast gəlinir.

**- Ürək-damar xəstəliklərini ilk mərhələdə bəlli edən faktorlar hansılardır?**

- Ümumiyyətlə yaşı 40-dan yuxarı şəxslər, zərərli vərdişləri, genetik ürək xəstəlikləri olanlar, oturaq həyat tərzi keçirənlərin ildə bir dəfə kardioloji müayinədən keçmələri mütləqdir.

Bundan əlavə, risk faktorunun olub-olmamasından asılı olmayaraq sinəsində yandırıcı, göynədici xarakterli ağrı, təngnəfəslik, ürək sıxıntısı kimi hisslər olduqda həkimə müraciət etmək vacibdir. Sinədə olan göynəmənin hər iki qola yayılması, həddindən artıq tərləmə hallarının meydana çıxması və bu şikayətlərin oturaq vəziyyətdə və ya uzun müddət davam etməsi hallarında artıq miokard infarktından şübhələnmək lazımdır. Bu zaman isə təxirə salınmadan, təcili yardım çağıraraq xəstəxanaya müraciət edilməlidir.

# SU EKZEMANIN QARŞISINI ALIR

***Ekzema kifayət qədər yayılmış, xroniki residivləşən dəri xəstəliyidir. Statistikaya əsasən, dəri xəstəliklərinin təxminən 30-40 faizini ekzema təşkil edir.***



Xəstəlik bütün yaş qrupu insanlarda görülə bilər. Ekzema ilk dəfə əsasən uşaq yaşlarında özünü göstərir. Problemin əmələ gəlmə səbəbləri tibbə hələ də məlum deyil. Lakin bəzi amillər bu xəstəliyin inkişafına təkan verə bilər. Bunlara misal olaraq irsiyyət, psixiki travmalar, şəkərli diabet, qalxanvari vəzi, həzm sistemi, varikoz kimi xəstəliklər, allergiyalar, bəzi kimyəvi maddələrlə uzun müddət təmasda olmaq, mikroblar, göbələklər kimi səbəblər ola bilər.

Soyuq havalarda bol su içmək ekzemanın qarşısını almağa kömək edir. Belə ki, soyuq havaya məruz qalan dəri nəmliyini itirərək quruyur. Bu da bəzi insanlarda ekzemaya və qaşıntıya səbəb olur. Ümumiyyətlə soyuq hava dəriyə, o cümlədən hüceyrələrə, toxumalara, dərialtı piy toxumasına bilavasitə zərər verir. Bundan əlavə soyuq hava dərini qidalandırandıran damarların vazospazmına səbəb olur.

Bütün bunların qarşısını almaq üçün mütəmadi olaraq bol su içilməli və nəmləndirici kremlərdən istifadə edilməlidir.

# VEGETARİAN PƏHRİZİ İNTELLEKT SƏVİYYƏSİNƏ MƏNFİ TƏSİR GÖSTƏRİR

***Yeni tədqiqatlara görə, süd məhsullarından imtina intellekt əmsalının (IQ) 13 bənd geriləməsi ilə nəticələnir. Ekspertlər vegetarian gənclərin sayının artmasının gələcək nəsillərin sağlamlığına ciddi təsir göstərəcəyindən narahatdırlar. Mütəxəssislər bildirirlər ki, intellektin səviyyəsi orqanizmə qida ilə daxil olan yodun miqdarından asılıdır. Hamilə vaxtı yod çatışmazlığı uşaq üçün mənfi nəticələrə gətirib çıxara bilər.***

"MedDaily" saytı xəbər verir ki, diyetoloq Helen Bondun fikrincə, getdikcə gənclərin çoxu bitki pəhrizini seçirlər. Bəziləri ekologiyanı, bəziləri isə tibbi əks-göstəriciləri düşünərək süd məhsullarından imtina edirlər. Rasionumuzda əsas yod mənbəyini süd məhsulları təmin edir. Balıq, yumurta, hətta ev quşları belə orqanizmdə yod ehtiyatını tam ödəyə bilmir.



Surrey Universitetinin alimləri 47 müxtəlif süd məhsulunda, o cümlədən soya, kokos, badam, düyü və yulaf südündə yodun miqdarını müəyyənləşdiriblər. İnək südü ilə müqayisədə, demək olar ki, bütün məhsullarda yodun miqdarı minimum 2 faiz azdır. Bu element qalxanabənzər vəzinin düzgün funksiyası üçün də vacibdir.

## ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Cəmiyyətin İnzibati İşlər və Vətəndaş müraciətləri ilə iş üzrə departamentinin aparıcı mütəxəssisi Vüsalə Əliyevaya, anası

**MƏSMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 384